Xalqın qəzeti!
# Xalq qəzeti
№ 217 (30911) 9 oktyabr 2025-ci il, cümə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Prezident İlham Əliyev Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək üçün qardaş ölkələrə təşəkkür edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək üçün bir daha qardaş ölkələrə təşəkkür edib.**

**Bu barədə dövlət başçısı "X" sosial şəbəkəsində paylaşım edib.**

**Paylaşımda deyilir: "Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək üçün qardaş ölkələrə bir daha təşəkkürümü bildirirəm. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq".**

# Xorvatiya Azərbaycanın Avropada önəmli dostu və tərəfdaşıdır

## *Prezident İlham Əliyev Xorvatiya parlamentinin nümayəndə heyətini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Xorvatiya parlamentinin sədri Azərbaycana ilk dəfə səfər etdiyini deyərək, paytaxt Bakının gözəlliyinin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

Qordan Yandrokoviç Prezident İlham Əliyevi Azərbaycan dövləti və xalqı naminə gördüyü işlərə və xidmətlərinə görə təbrik etdi. Qonaq, həmçinin Vaşinqtonda Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəliyə aparılması istiqamətində əldə edilmiş nəticələr münasibətilə də təbriklərini çatdırdı.

Azərbaycan ilə Xorvatiya arasında əlaqələrin yaxşı səviyyədə olduğunu deyən Qordan Yandrokoviç parlamentlərarası münasibətlərin daha da genişləndirilməsi üçün imkanların mövcud olduğunu vurğuladı. Hər iki ölkədə parlamentlərarası dostluq qruplarının fəaliyyət göstərdiyini qeyd edən qonaq dostluq qrupları ilə yanaşı, müxtəlif parlament komitələri arasında da əməkdaşlığın vacibliyinə toxundu.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət kəsb etdiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan ilə Xorvatiya arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə etdi.

Xorvatiyanın Azərbaycanın Avropa İttifaqı və NATO ilə əlaqələrinin inkişafını daim dəstəkləməsi vurğulandı.

Görüşdə ikitərəfli münasibətlərin dostluq və tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdiyi bildirildi, enerji, sərmayələr, turizm və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğu diqqətə çatdırıldı, ölkələrimizin beynəlxalq parlamentlərarası təsisatlar çərçivəsində əlaqələrinin inkişaf perspektivləri müzakirə olundu.

***AZƏRTAC***

## 2013-cü il oktyabrın 9-da keçirilmiş seçkilərdə…

### *Xalq əvvəlki 10 ilin uğurlarına səs vermişdi*



**Əsl siyasətçi məntiqi, lider arqumenti idi. Dövlət başçımız deyirdi ki, xalq bu səsvermədə gələcəklə bağlı öz fikirlərini, arzularını ifadə etdi. Yəni ölkə əhalisi görülmüş işlərə qiymət verməklə yanaşı, görüləcək işlər üçün də öz seçimini etməli idi və etdi. Nəticələr isə göz qabağındadır.**

Ekspert və tarixçilər yazırlar ki, 2013-cü il oktyabrın 9-da keçirilmiş prezident seçkiləri ölkəmizin tarixinə mühüm hadisə kimi düşmüşdü. Bildirilir ki, ölkə vətəndaşlarının səsvermədəki fəallığı seçkiləri müşahidə edən xarici ekspertlərin diqqətindən də yayınmamışdı. Müşahidəçilərin hamısı həmin faktı yüksək qiymətləndirərək Azərbaycanda demokratik proseslərin uğurla getdiyini, prezident seçkilərinin dünya təcrübəsinə əsaslanaraq keçirildiyini bildirmişdilər.

***(ardı 5-ci səhifədə)***

## "Odlar yurdu" qardaş ölkələrin etibarlı enerji tərəfdaşıdır



**Səhifə ⇨ 7**

## TDT "vahid güc" çevrəsində

### *Prezident İlham Əliyevin birgə hərbi təlim təklifi regional təhlükəsizliyin yeni mərhələsidir*



**Qloballaşan dünyada təhlükəsizlik və müdafiə məsələləri təkcə ayrı-ayrı regionlar üçün deyil, bütövlükdə beynəlxalq münasibətlər sistemi üçün həlledici amilə çevrilib. Müasir çağırışlar göstərir ki, ölkələr arasında əməkdaşlıq nə qədər genişlənirsə, təhlükəsizlik də bir o qədər möhkəmlənir. Xüsusilə uzun illər münaqişələrdən əziyyət çəkmiş bölgələrdə bu məsələ daha kəskin şəkildə hiss olunur.**

Son illər regional güc mərkəzlərinin təşəbbüsləri göstərir ki, iqtisadi inkişafın təməlində dayanan əsas faktor məhz sabitlikdir. Bu sabitliyin qorunması isə hərbi, siyasi və hüquqi mexanizmlərin paralel fəaliyyətini tələb edir. Dünyada artan geosiyasi gərginliklər, sərhəd mübahisələri və yeni münaqişə riskləri bir çox dövlətləri müdafiə və təhlükəsizlik sahəsində daha sıx əməkdaşlığa sövq edir. Ölkələr arasında etimad mühitinin gücləndirilməsi, ortaq təhdidlərə qarşı vahid mövqedən çıxış edilməsi bu gün, sadəcə, xoşniyyətli bəyanatlar deyil, zəruri tələbat kimi dəyərləndirilir. Belə bir şəraitdə müttəfiqlərin birgə hərbi təlimlərə, müdafiə və texniki əməkdaşlığa üstünlük verməsi həm sabitliyin möhkəmlənməsinə, həm də gələcək risklərin qarşısının alınmasına xidmət edir. Məhz bu baxış bucağından yanaşdıqda Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsi təşəbbüsü diqqətçəkici addım kimi dəyərləndirilə bilər.

***(ardı 4-cü səhifədə)***

## Xortlamış Koçaryan sülh üzərində "zəhər tuluğu"na dönüb



**Səhifə ⇨ 6**

## İlham Əliyevin sülh fəlsəfəsi və Türk dünyasının yeni nizamı



**Səhifə ⇨ 3**

## Paytaxtda "Məktəbli avtobusları" layihəsinə start verilib



**Səhifə ⇨ 8**

## Sakit Məmmədovun "rəngli ibadət"ləri



**Səhifə ⇨ 10**

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

*Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 178-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli 471 nömrəli və 13 avqust tarixli 478 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 22-2-ci hissə əlavə edilsin:

"22-2. Məcəllənin 279.2-ci və 279.3-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

22-2.1. elektrik közərmə lampalarının idxalına münasibətdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından – bu Siyahının 46.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

22-2.2. elektrik közərmə lampalarının istehsalına münasibətdə Azərbaycan Respublikasının Energetika Nazirliyi adından – energetika naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Nazirliyin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi İdarə Heyətinin sədri, onun müavinləri, departament direktoru, onun müavini, şöbə müdiri, sektor müdiri, baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis, filial rəhbəri, onun müavini, baş müfəttiş, böyük müfəttiş, aparıcı müfəttiş, müfəttiş;

22-2.3. elektrik közərmə lampalarının satışına münasibətdə:

22-2.3.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Energetika Nazirliyi adından – bu Siyahının 22-2.2-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

22-2.3.2. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi adından – Agentliyin sədri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, regional bölmənin rəhbəri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi.".

2. Bu Fərman 60 Vt və daha yuxarı gücə malik olan közərmə lampalarına münasibətdə 2026-cı il yanvarın 1-dən, 25 Vt-dan (25 Vt daxil olmaqla) 60 Vt-a qədər gücə malik olan közərmə lampalarına münasibətdə 2026-cı il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 oktyabr 2025-ci il**

# Xorvatiyanın parlament sədri Milli Məclisdə



**Ölkəmizdə rəsmi səfərdə olan Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviçin başçılıq etdiyi parlament nümayəndə heyəti oktyabrın 8-də Milli Məclisə gəlib.**

Milli Məclisin sədri Sahibə Qafarova və Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviç arasında geniş tərkibdə görüş olub. Sahibə Qafarova bu səfərin son 11 ildə parlament rəhbəri səviyyəsində ilk səfər olmaqla yanaşı, ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin inkişafına öz töhfəsini verəcəyinə inamını ifadə edib. Görüşdə ölkələrimiz arasında diplomatik münasibətlərin yaranmasından ötən 30 il ərzində münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, əlaqələrimizin inkişafında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin mühüm rolu qeyd edilib.

Görüşdə Azərbaycanın bir sıra Avropa ölkələrinin enerji təhlükəsizliyinin qorunmasındakı mühüm rolundan söhbət açılıb. Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, iki ölkənin parlament komitələri arasındakı münasibətlərin inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanda səfərdə olmaqdan məmnunluğunu bildirən Qordan Yandrokoviç Prezident İlham Əliyevlə keçirdiyi görüş barədə təəssüratlarını bölüşüb.

Parlament sədri ölkələrimiz arasında iqtisadi sahədə mövcud olan münasibətlərin, o cümlədən enerji sektorunda əməkdaşlığın önəmindən danışıb, Azərbaycanın Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin ediilməsində rolunu vurğulayıb.

***

**Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova və Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviç ikitərəfli görüşdən sonra mətbuata bəyanatlarla çıxış ediblər.**

S.Qafarova Xorvatiya parlamenti sədrinin Azərbaycana rəsmi səfərinin bir sıra məqamlarla əlamətdar olduğunu söyləyib. O qeyd edib ki, bu səfər ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünə təsadüf edir.

Görüşdə iki ölkə arasında münasibətlərin dərinləşməsində parlamentlər arasında əməkdaşlığın da əhəmiyyəti vurğulanaraq, hər iki parlamentdə dostluq qruplarının fəaliyyət göstərdiyi, nümayəndə heyətlərinin qarşılıqlı olaraq parlamentlərimizin təşkil etdiyi tədbirlərdə, bir sıra beynəlxalq parlament təşkilatlarının işində birgə iştirak etdikləri qeyd olunub. Sahibə Qafarova parlamentlərimiz arasındakı əlaqələri daha da genişləndirmək üçün yaxşı imkanlar olduğunu bildirib.

Xorvatiya ilə Azərbaycanın intensiv siyasi dialoq və mükəmməl iqtisadi əlaqələrə sahib strateji tərəfdaş və dost ölkələr olduğunu bildirən Qordan Yandrokoviç deyib ki, ölkəsi Azərbaycanın müstəsna iqtisadi nailiyyətlərini, eləcə də onun təkcə Cənubi Qafqazda deyil, həm də regiondan kənarda oynadığı əhəmiyyətli rolu tanıyır və alqışlayır.

O qeyd edib ki, Xorvatiya Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyi istiqamətində indiyədək əldə olunmuş irəliləyişi qətiyyətlə dəstəkləyir.

Xorvatiya parlamentinin sədri qanunverici orqanlarımız arasında əməkdaşlığın daha da gücləndirilməsinə xüsusi diqqət yetirmək istədiklərini qeyd edərək, bu səfəri Xorvatiya parlamentinin gələcəkdə bu istiqamətdə yeni addımlar atmağa hazır olmasının təsdiqi kimi dəyərləndirib. Parlament sədri bu istiqamətdə atıla biləcək addımlar barədə fikirlərini ifadə edib.

# Xorvatiya parlamentinin sədri Ulu öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



**Azərbaycanda rəsmi səfərdə olan Xorvatiya parlamentinin sədri Qordan Yandrokoviçin rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 8-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil qoyub.**

Sonra qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

***XQ***

# XİN-də İspaniyanın dövlət katibi ilə görüş

**Oktyabrın 8-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İspaniya Krallığının Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq Nazirliyinin ölkəmizdə səfərdə olan xarici və qlobal məsələlər üzrə dövlət katibi Dieqo Martinez-Belio ilə görüşüb.**



Görüş zamanı Azərbaycan və İspaniya arasında ikitərəfli münasibətlərin cari vəziyyəti və perspektivləri, xüsusilə siyasi dialoqun əhəmiyyəti, iqtisadi, enerji, turizm, nəqliyyat, humanitar və mədəni sahələrdə əməkdaşlıq, eləcə də regional məsələlər müzakirə olunub.

Nazir Ceyhun Bayramov İspaniya ilə münasibətlərin dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslandığını vurğulayaraq, iki ölkə arasında mövcud siyasi dialoqun və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Görüş zamanı tərəflər, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlıq münasibətləri, enerji təhlükəsizliyi, yaşıl enerji və nəqliyyat-kommunikasiya layihələri üzrə əməkdaşlıq imkanlarını nəzərdən keçiriblər.

***

Həmin gün, həmçinin Azərbaycan Respublikası ilə İspaniya Krallığının Xarici İşlər nazirlikləri arasında növbəti siyasi məsləhətləşmələr keçirilib. Nümayəndə heyətinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Fariz Rzayev, İspaniya tərəfindən isə Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq Nazirliyinin xarici və qlobal məsələlər üzrə dövlət katibi Dieqo Martinez-Belio başçılıq ediblər.

# Azərbaycan–Macarıstan Konstitusiya məhkəmələri müzakirəsi



**Oktyabrın 8-də Azərbaycanın Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev ölkəmizdə işgüzar səfərdə olan Macarıstanın Konstitusiya Məhkəməsinin hakimi Akoş Kozma və Baş katibi Vivien Kozma ilə görüşüb.**

Görüşdə qeyd olunub ki, Azərbaycan və Macarıstan arasında formalaşmış sıx münasibətlər məhkəmə-hüquq sahəsində də əməkdaşlığın genişlənməsinə töhfə verir. Xüsusilə, konstitusiya nəzarətinin effektivliyi, o cümlədən vətəndaşların Konstitusiyada təsbit edilmiş hüquqların təmin edilməsi mexanizmlərinin tətbiqi üzrə təcrübə mübadiləsi hər iki məhkəmənin fəaliyyəti üçün önəmlidir.

Görüş zamanı Azərbaycan Konstitusiya Məhkəməsinin fəaliyyəti barədə ətraflı məlumat verilib, Konstitusiya məhkəmələri arasında əməkdaşlığın mövcud vəziyyəti və gələcək inkişaf məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra Akoş Kozma səmimi qəbula görə təşəkkürünü bildirib, Azərbaycanın Konstitusiya Məhkəməsi ilə əməkdaşlığın faydalı olduğunu vurğulayıb.

***XQ***

# Baş prokurorun Səudiyyə Ərəbistanına səfəri

**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti dünən Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya Qarşı Mübarizə qurumunun (Nazaha) rəhbəri Mazin İbrahim Əl-Kahmusun dəvəti ilə Ciddə şəhərində təşkil olunan beynəlxalq konfransda iştirak etmək məqsədilə Səudiyyə Ərəbistanı Krallığına işgüzar səfərə gəlib.**



Səfər zamanı Baş prokuror Nazaha qurumunun rəhbəri Mazin İbrahim Əl-Kahmus ilə ikitərəfli görüş keçirib. Görüşdə Mazin İbrahim Əl-Kahmus dövlətlərimiz arasında bütün sahələrdə daim inkişaf edən tərəfdaşlıq münasibətlərindən, eləcə də ölkələrimizin hüquq-mühafizə orqanları arasında yüksək əlaqələrin daha da inkişaf etməsindən məmnunluq ifadə edib. Göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə Baş prokuror minnətdarlığını bildirərək, Səudiyyə Ərəbistanı Krallığının aidiyyəti səlahiyyətli orqanları ilə və beynəlxalq təşkilatlar çərçivəsində cinayətkarlıqla mübarizə sahəsində, xüsusilə də Nazaha ilə cinayət yolu ilə əldə edilmiş əmlakın bərpası sahəsində ikitərəfli əməkdaşlığın daha da artacağına əminliyini ifadə edib.

Səfər çərçivəsində Kamran Əliyev, həmçinin Somali Ədliyyə və konstitusional işlər naziri Hasan Moallim Mahmud Şeyx Əli və Qətər Dövlətinin Baş prokuroru İssa bin Səad əl-Cufali əl-Nuaimi ilə də görüşüb.

***XQ***

# Dünya Bankının "Qayıdış" dəstəyi

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Dünya Bankının nümayəndə heyəti ilə görüşüb.**

Söhbət zamanı qonaqlara Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planını çərçivəsində keçmiş məcburi köçkünlərin dayanıqlı məskunlaşmasının təmin edilməsi ilə bağlı komitənin həyata keçirdiyi işlər barədə məlumat verilib. Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri məcburi köçkünlərin təhlükəsiz şəraitdə, könüllü və ləyaqətlə doğma yurda geri qayıdışına şərait yaradır.

Əhalinin ləyaqətli yaşayışının təmin edilməsi, maddi rifah halının yüksəldilməsi üçün kompleks tədbirlər həyata keçirilir. Dünya Bankı ilə birgə keçirilən layihə də doğma yurdlarına qayıtmağa hazırlaşan köçkünlərin məşğulluğunun təmin edilməsi baxımından əhəmiyyətlidir. 18 şəhər və rayonu əhatə edən layihə çərçivəsində keçirilən təlimlərdə 800-ə yaxın məcburi köçkün iştirak edib.

Dünya Bankının nümayəndələri – "Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması layihəsi"nin Dünya Bankı tərəfindən layihə rəhbəri Erik Koldvel Conson, Dünya Bankının əməkdaşı Sabina Anne Espinoza, Dünya Bankının Azərbaycandakı fəaliyyəti ilə əlaqəli nümayəndəsi Xalisa Şahverdiyeva məcburi köçkünlərlə bağlı əməkdaşlığın əhəmiyyətini vurğulayıb və bundan məmnunluqlarını ifadə ediblər.

***XQ***

# İlham Əliyevin sülh fəlsəfəsi və Türk dünyasının yeni nizamı

**Türk Dövlətləri Təşkilatının Qəbələ Zirvə görüşü Türk dünyasının sülh fəlsəfəsinin siyasi manifestinə çevrildi. Zirvədəki çıxışların ümumi ruhunda bir məxrəc vardı: sülh və ədalət üzərində qurulmuş yeni regional nizam.**



Son aylar ABŞ Konqresində Azərbaycana qarşı irəli sürülən qətnamə təşəbbüsləri və ümumilikdə xaricdən gələn siyasi təzyiqlər regiondakı sülh gündəliyinə təhdid kimi görünə bilərdi. Təəccüblü deyil ki, belə cəhdlər əks reaksiyaya–TDT-də daha sıx həmrəyliyə səbəb oldu. Niyə? Analitik cavabı üç mexanizm vasitəsilə izah etmək mümkündür.

Birincisi, xarici aktorlardan gələn təzyiq millətçi və təhlükəsizlik narahatlıqlarını stimullaşdırır; liderlər bundan istifadə edərək daxili konsolidasiya üçün siyasi kapital qazanır. Zirvə görüşündə səslənən etiraflar Bakı ətrafında yaranan təqdir hissini gücləndirir, TDT daxilində Azərbaycanın ideya liderliyini möhkəmləndirir.

İkinci mexanizm isə ortaq maraqların instrumentalizasiyasıdır. Xarici qərar və təşəbbüslər üzvləri üzvi maraqlarını yenidən qiymətləndirməyə məcbur edir. Türkiyə, Qazaxıstan və digər üzvlər üçün regionda sabitliyin iqtisadi və təhlükəsizlik dividendləri aydın olduğundan sülh gündəliyi artan prioritet qazanır. Üçüncü mexanizm isə institusional çevikliyin yaranmasıdır. Xarici təzyiq qarşısında ölkələr formal ittifaqlara deyil, sürətli və praqmatik koalisiya mexanizmlərinə üz tuturlar. TDT sammitlərinin tez-tez Azərbaycanda keçirilməsi, Qəbələnin seçilməsi və liderlərin ortaq bəyanatları göstərir ki, platforma artıq "reaksiya qurumu"na çevrilib.

Prezident İlham Əliyev çıxışında vurğuladı: "İki ay əvvəl Vaşinqtonda, Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazı sülh məkanına çevirəcək". Dövlət başçımız göstərdi ki, artıq sülh Azərbaycan üçün geosiyasi mexanizmdir, yəni sabitliyin idarə forması, nizamın qorunma üsuludur. Prezidentin fikirləri Cənubi Qafqazda uzun illər davam edən "status-kvo diplomatiyası"na qarşı ən ciddi cavab idi. İlham Əliyev mesaj verdi ki, sülh prosesi beynəlxalq hüquq və regional realizmin sintezidir. ABŞ Konqresində Azərbaycana qarşı səsləndirilən qərəzli qətnamə təşəbbüslərinə, regionda balansı pozmaq istəyən qüvvələrə baxmayaraq, Bakı sülh gündəliyini geridönməz proses kimi təqdim edir.

Amma daha önəmlisi, bu gündəlik təkbaşına təşəbbüs kimi qalmadı. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev bunu açıq şəkildə etiraf etdi: "Heç bir mübaliğəsiz demək olar ki, Ermənistanla imzaladığınız Birgə Bəyannamə məhz Sizin siyasi iradəniz sayəsində mümkün olmuşdur və bu, türk dövlətlərinin birgə nailiyyətidir". Özbəskistan Prezidentinin etirafı təsadüfi deyildi. Əslində, bu etiraf Türk dünyasının diplomatik xəritəsində Azərbaycanın lider rolunun təsdiqidir.

Qeyd etməliyik ki, Mirziyoyevin sözlərində dərin məna var: Cənubi Qafqazda sülh artıq ikitərəfli deyil, kollektiv siyasi akt kimi qəbul olunur. Yəni Ermənistanla Azərbaycan arasında imzalanan saziş yalnız regional sabitliyi təmin etmir. O, TDT-nin siyasi identikliyinin bərpası kimi çıxış edir. Bütün bunlar həm də beynəlxalq münasibətlərdə yeni paradiqmanın yaranması deməkdir. Əgər Qərb institusiyaları on illərlə Qafqazda vasitəçi rolunda çıxış edib, amma nəticə əldə edə bilməyiblərsə, indi TDT bu rolu effektiv şəkildə öz üzərinə götürür. İlham Əliyevin sülhə dair ritorikası məhz bu dönüşü simvolizə edir: Qafqazda sabitlik artıq Qərb diplomatiyasının deyil, Türk diplomatik iradəsinin məhsuludur.

Prezident Rəcəb Tayyib Ərdoğan Qəbələdə bunu açıq şəkildə ifadə etdi: "Azərbaycan ilə Ermənistan arasında avqustun 8-də imzalanan Birgə Bəyannaməni bu baxımdan xeyirli addım olaraq görür, davamının gəlməsini arzulayırıq". Onun sözləri Ankaranın diplomatik xəttinin Bakı ilə tam sinxronlaşmasının açıq təsdiqidir. Ərdoğan mesaj verdi ki, türk dövlətləri sülhü artıq beynəlxalq layihə kimi deyil, regional mexanizm kimi qəbul edirlər. Yəni Qafqazda sabitliyin qorunması təkcə Azərbaycan-Ermənistan münasibətlərinə deyil, bütövlükdə Türk dünyasının strateji təhlükəsizlik arxitekturasına daxildir.

Məsələ burasındadır ki, bütün bu fikirlər həm də "türk təhlükəsizlik konsepsiyası"nın yeni mərhələsinə keçid deməkdir. Əvvəllər TDT çərçivəsində əməkdaşlıq daha çox iqtisadi və mədəni səviyyədə qurulurdusa, Qəbələ Zirvəsindən sonra artıq sülhün və sabitliyin institusional təminatı müstəvisinə keçir.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin çıxışı da bu məntiqi tamamladı: "Bu il davam edən münaqişənin həllində mühüm tarixi addımdır... Mövcud geosiyasi vəziyyətin fonunda türk dövlətləri arasındakı birlik çox vacibdir". Tokayevin "tarixi addım" ifadəsi, əslində, Qəbələ Zirvəsinin mahiyyətini bir cümlədə açır: burada sadəcə sülh sazişinin təbriki yox, postmünaqişə dövrünün idarəetmə modeli formalaşır. Modelin mərkəzində isə Azərbaycan dayanır. Çünki İlham Əliyevin liderliyi ilə regionda yaranan yeni siyasi reallıq, türk dövlətlərinin vahid təhlükəsizlik fəlsəfəsini formalaşdırmağa imkan yaradıb.

Qırğızıstan Prezidenti Sadır Japarovun sözləri isə bu reallığın mənəvi ölçüsünü ortaya qoydu: "Bu, hər iki ölkənin siyasi rəhbərliyinin iradəsini göstərir və bunun sayəsində Cənubi Qafqazda davamlı sülh, təhlükəsizlik və etimad qurulacaq". Burada artıq fərdi təşəbbüsdən deyil, kollektiv siyasi iradədən danışılır. Japarovun vurğuladığı "etimad" məfhumu TDT-nin gələcək xarakterini müəyyən edən əsas prinsipə çevrilir. Çünki bu etimadın arxasında 44 günlük müharibənin nəticələri, Qarabağda bərpa olunan ədalət və Qəbələdən səslənən sabitlik ideyası dayanır. Bütün bu çıxışlar bir daha göstərdi ki, Qəbələ Zirvəsi sülhün yekun mərhələsi deyil, onun regional institusionallaşma prosesidir. Yəni artıq sülh sənədi yox, sülh siyasəti fəaliyyətə keçib. Bəs bu siyasətin əsas gücü nədədir? O, hərbi gücə deyil, siyasi iradə, iqtisadi qarşılıqlı asılılıq və ortaq tarixi yaddaşa söykənir. Məhz buna görə də Qəbələdən yayılan mesaj – Türk dünyasının gələcək geosiyasi konsepsiyasının manifestidir.

Bəs bu həmrəylik hansı nəticəni doğura bilər? Türk dünyası artıq regional sabitlik üçün alternativ beynəlxalq mexanizmə çevrilir. Burada əsas ideya müstəqil və özünütənzimləyən təhlükəsizlik modelinin formalaşdırılmasıdır və bu modeldə Azərbaycan mərkəzi rol oynayır – həm siyasi iradə, həm diplomatik nüfuz, həm də iqtisadi potensial baxımından. Qəbələdə səslənən çıxışlarda bu reallıq artıq fakt kimi qəbul olunur. Prezident İlham Əliyevin sülh gündəliyi, Ərdoğanın dəstəyi, Tokayevin və Mirziyoyevin vurğuladığı "tarixi addım" ifadələri, Japarovun etimad çağırışı – bunlar hamısı bir ideyanı möhkəmləndirir: TDT tədricən post-Qərb dünyanın regional təhlükəsizlik strukturuna çevrilir. Əgər bu xətt davamlı şəkildə qorunarsa, TDT yaxın illərdə təkcə iqtisadi və mədəni platforma deyil, Cənubi Qafqazdan Mərkəzi Asiyaya qədər uzanan sülh arxitekturasının institusional dayağına çevriləcək. Bununla da beynəlxalq arenada yeni güc mərkəzinin formalaşması–milli maraqlara söykənən, kollektiv məsuliyyət daşıyan sistemin yaranması gerçəkləşəcək.



Son olaraq qeyd edək ki, Qəbələ Zirvəsi Türk dünyasının yeni siyasi koordinatlarının başlanğıcıdır. Qəbələdən başlayan bu prosesin gələcək nəticəsi artıq sual deyil, yeni reallığın başlanğıcıdır. Türk dünyası "sülh estafetini" qəbul etdi və indi onu tarixə çevirmək mərhələsinə qədəm qoyur.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# TDT-nin kimlik və şərəf manifesti

## *Füzulidə türk qardaşlığının "töhfələr" poliqonu*

**Oktyabrın 7-də qədim Qəbələ torpağı Türk dünyasının ürəyinin vahid ritmlə döyündüyü tarixi anlara şahidlik etdi. Azərbaycan Prezidenti İlham Əliyevin, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun və Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşündə iştirak edən ali qonaqların iştirakı ilə müasir texnologiyalar vasitəsilə zaman və məkan sərhədlərini aşan mənəvi körpü quruldu. Həmin gün Qəbələdən Qarabağın sinəsinə, işğaldan azad edilmiş qəhrəman Füzuli şəhərinə uzanan sarsılmaz qardaşlıq telləri ilə Türkmənistan tərəfindən inşa olunacaq möhtəşəm məscid kompleksinin təməli atıldı.**



Təməlqoyma mərasimi, sadəcə, yeni ibadət ocağının inşasına başlanmasının texniki prosesi mahiyyətində qalmadı. Füzuli səmasında ucalacaq minarələr Allaha yönələn duaların məkanı olmaqla, həm də əsrlərin sınağından şərəflə çıxmış, Xəzərin hər iki sahilini mənəvi tellərlə birləşdirən qardaşlığın sönməz mayakı funksiyasını yerinə yetirəcək. Təşəbbüs, eyni zamanda, Qarabağ və Şərqi Zəngəzurun bərpası kimi möhtəşəm quruculuq missiyasının təkcə Azərbaycanın məsələsi olmadığını, bütöv Türk dünyasının ortaq şərəf və ləyaqət məsələsinə çevrildiyini bütün dünyaya bəyan edən tarixi manifestdir.

Füzuli şəhərində məhz Türkmənistanın töhfəsi ilə ucaldılacaq məscidin seçilməsi dərin simvolik məna qatları ilə zəngindir. Füzuli Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə adını qızıl hərflərlə yazdırmış, eyni zamanda, erməni vandalizminin ən amansız şahidinə çevrilmiş şəhərdir. Otuz il ərzində hər daşına, hər qarış torpağına həsrət və iztirab hopmuş Füzulidə yenidən həyat cücərir. Məhz belə məkanda yeni məscidin inşası barbarlığa qarşı sivilizasiyanın, nifrətə qarşı sevginin, dağıntıya qarşı quruculuğun qətiyyətli cavabıdır ki, Azərbaycan torpaqlarında yenidən azan səsləri ucalacaq və həmin səslər bütün Türk–İslam aləminin həmrəyliyi ilə daha da güclənəcək.

Türkmənistanın mənəvi quruculuq missiyasında ön sırada yer alması iki xalqın tarixi taleyinin və etnik köklərinin nə qədər yaxın və dərin olduğunu göstərir. Eyni Oğuz boyundan gələn, dilləri, adət-ənənələri və mədəniyyətləri bir-birinə hopan azərbaycanlılar və türkmənlər üçün Füzulidəki məscid ortaq mənəvi evə çevriləcək. Ümumi sahəsi bir hektardan çox olan ərazidə salınacaq kompleksin memarlıq həlli də həmin birliyin fiziki təzahürü olacaq. Hündürlüyü 30 metrə çatacaq əsas günbəz və hər biri 40 metr olan qoşa minarə Azərbaycan və Mərkəzi Asiya memarlıq məktəblərinin ən gözəl elementlərini sintez edərək, Qarabağın yeni memarlıq palitrasına xüsusi çalar qatacaq. Eyni anda 500 nəfərin ibadət edə biləcəyi geniş zal, sadəcə, namaz qılmaq üçün məkan funksiyası daşımayacaq, həm də Füzuliyə qayıdacaq insanların toplaşacağı, mənəvi rahatlıq tapacağı və qardaş türkmən xalqının səmimi dostluğunu hər zaman hiss edəcəyi müqəddəs ocaq olacaq.

*

Füzulidə türkmən məscidinin təməlinin qoyulması, daha geniş geosiyasi və mədəni kontekstdə TDT-nin artan rolunun və Qarabağın bərpasının ümumtürk missiyasına çevrilməsinin parlaq təzahürüdür. Azərbaycanın tarixi Zəfəri ilə Cənubi Qafqazda yaranmış yeni reallıqlar TDT üçün yeni fəaliyyət üfüqləri açıb. Təşkilat artıq real iqtisadi və humanitar layihələr həyata keçirən güclü geosiyasi mərkəzə çevrilməkdədir. Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi prosesi TDT-nin yeni keyfiyyətini nümayiş etdirmək üçün ideal fürsət yaradıb. Qardaş ölkələr Azərbaycanın tək olmadığını, sevincinin və quruculuq əzminin bütün Türk dünyası tərəfindən paylaşıldığını əməli addımlarla sübut edirlər.

Türkmənistanın Qarabağa məscid hədiyyəsi ilə yanaşı, digər qardaş ölkələrin töhfələri manifestin ayrı-ayrı unudulmaz səhifələridir. Özbəkistanın Füzuli şəhərində dahi astronom və mütəfəkkir Mirzə Uluqbəyin adını daşıyan modern məktəb inşa etməsi işğal altında məhv edilmiş təhsil ocaqlarının yerində elm və maarifçilik şamının yenidən alovlandırılmasının rəmzidir. Qazaxıstanın dahi bəstəkar Kurmanqazının adını daşıyan Uşaq Yaradıcılıq Mərkəzini tikməsi Qarabağ torpağında yenidən musiqinin, sənətin və uşaq gülüşünün bərqərar olmasının müjdəsidir. Qırğızıstanın Ağdam rayonunda qəhrəmanlıq dastanı Manasın adını daşıyacaq məktəb tikmək təşəbbüsü məğlubedilməz türk ruhunun və milli kimliyin dirçəlişinin simvoludur. Macarıstan kimi TDT-də müşahidəçi statusuna malik, lakin kökləri ilə Türk dünyasına bağlı Avropa ölkəsinin Cəbrayıl rayonunda məktəb binasının inşasına dəstək verməsi həmrəylik dairəsinin coğrafi və mədəni sərhədlərinin nə qədər geniş olduğunu göstərir. Və əlbəttə, qardaş Türkiyə şirkətlərinin Zəfərin ilk günündən etibarən Azərbaycanın yanında olması, yolların, körpülərin, tunellərin və digər strateji infrastrukturun inşasında fəal iştirakı, həmin quruculuq prosesinin lokomotivi rolunu oynaması "bir millət iki dövlət" reallığının meydandakı təcəssümüdür.

Təməlqoyma mərasiminin TDT-nin Zirvə görüşü çərçivəsində və bütün dövlət başçılarının virtual iştirakı ilə keçirilməsi hadisənin siyasi və diplomatik çəkisini daha da artırır. Bu format verilən mesajın ünvanının bütün dünya olduğunu göstərir. Mesaj isə aydın və birmənalıdır: Türk dünyası monolitdir, sarsılmazdır və üzvlərindən hər hansı birinin haqq işini, o cümlədən suveren ərazilərindəki quruculuq fəaliyyətini tam dəstəkləyir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi quruculuq işlərinə verilən kollektiv dəstək, eyni zamanda, regionda sülhün və sabitliyin bərqərar olmasında Türk dünyasının maraqlı olduğunu nümayiş etdirir. Qardaş ölkələr Qarabağa təkcə sement, kərpic və ya maliyyə vəsaiti gətirmirlər. Onlar regiona sülh, sabitlik, inkişaf və ortaq rifah gələcəyinə inam gətirirlər. Məktəblər, mədəniyyət mərkəzləri və məscidlər uzunmüddətli sülhün və qonşuluğun ən etibarlı təməlləridir. Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun şəxsi təşəbbüsü və dəstəyi ilə həyata keçirilən məscid layihəsi həm də iki ölkə liderləri arasında səmimi dostluq və qarşılıqlı etimad münasibətlərinin bariz nümunəsidir. Belə yüksək səviyyəli şəxsi münasibətlər dövlətlərarası əlaqələrin strateji dərinliyini təmin edən mühüm amillərdəndir.

Füzulidə təməli qoyulan yeni məscid kompleksi memarlıq möhtəşəmliyi və mənəvi dəyərindən qat-qat böyük tarixi və geosiyasi əhəmiyyətə malikdir. Həmin ibadətgah Azərbaycan torpağında ucaldılan, lakin kökləri Xəzərin o tayına, qardaş türkmən torpağına uzanan möhtəşəm dostluq çinarıdır. Eyni zamanda, məscid TDT-nin vahid mərkəz kimi fəaliyyət göstərməsinin, üzvlərinin Azərbaycanın haqq işinə verdiyi birmənalı dəstəyin və Qarabağın bərpasının ümumtürk missiyasına çevrilməsinin ən parlaq sübutudur. Məktəblər, yaradıcılıq mərkəzləri və məscidlərlə Qarabağın siması yenidən cızılır və həmin yeni simanın hər cizgisində bütün Türk dünyasının imzası var. Füzulidəki məscidin günbəzi altında edilən dualar, bütün Türk–İslam aləminin sülh, əmin-amanlıq və tərəqqisi üçün ediləcək, qoşa minarəsindən ucalan azan səsi Qarabağ səmasında əks-səda verəcək.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

# TDT “vahid güc” çevrəsində



(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyev bu təşəbbüsü TDT Dövlət Başçıları Şurasının 2025-ci il oktyabrın 7-də Qəbələdə keçirilən 12-ci Zirvə görüşü zamanı irəli sürüb. Dövlətimizin başçısı deyib: “Hörmətli həmkarlar, bu gün sülh və təhlükəsizlik hər bir ölkənin inkişafı üçün əsas amildir. Təşkilatımızın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer alıb. Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda, ötən il Şuşada qeyri-rəsmi Zirvə Görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü Zirvə Görüşünün “Regional sülh və təhlükəsizlik” mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir.

Məlumdur ki, təhlükəsizlik təmin edilmədən inkişaf mümkün deyil. Beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğu dövrdə ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq çox önəmli amillərdən biridir. Bu çərçivədə müttəfiqimiz olan Türkiyə ilə dərin əməkdaşlıq mövcuddur. Yalnız son bir ildə Türkiyə ilə birgə 25-dən artıq ikitərəfli və çoxmillətli hərbi təlimlər keçirilmişdir. Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif edirəm”.

Dövlət başçımız qeyd edib ki, çağdaş dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün əsas amilidir. Məsələyə bu rakursdan yanaşanda İlham Əliyevin TDT-yə üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsi təşəbbüsü təkcə texniki təklif deyil, həm də strateji vizyonun göstəricisi kimi dəyərləndirilə bilər. Qəbələdə səslənən bu çağırış bölgədə sülh və təhlükəsizlik anlayışına yeni praqmatik məzmun gətirdi.

* * *

Son illər dünyada baş verən geosiyasi gərginliklər, xüsusən də beynəlxalq hüququn kobud şəkildə pozulduğu nümunələr göstərdi ki, sülhün təminatı yalnız kağız üzərində yazılmış sazişlərdən asılı ola bilməz. Təhlükəsizlik boşluğu yaranan hər bir region inkişafın tempini zəiflədir, sosial rifahı təhlükə altına alır. Belə şəraitdə müttəfiq dövlətlərin birgə hərbi təlimlər keçirməsi həm önləyici tədbir, həm də güc nümayişidir. Bu, eyni zamanda, müasir münaqişə ssenarilərinə qarşı çevik reaksiya vermək üçün əməli hazırlığın artırılmasına xidmət edir.

Prezidentin çıxışında vurğulanan məqamlar təkcə siyasi bəyanat deyil, praktik təcrübəyə əsaslanan yanaşmadır. Son bir ildə Türkiyə ilə birgə keçirilən 25-dən çox hərbi təlim bunun təsdiqidir. Bu təlimlər göstərdi ki, qarşılıqlı etimad və texniki uyğunluq nə qədər möhkəmdirsə, potensial risklərə cavab da bir o qədər sürətli və effektiv olur. Regionun gələcək təhlükəsizliyi baxımından bu təcrübəni bütün üzv dövlətlər arasında genişləndirmək həm məntiqli, həm də vacib addımdır. Eyni zamanda, belə təlimlər, sadəcə, hərbi baxımdan deyil, psixoloji və siyasi baxımdan da çəkindirici təsirə malikdir. Onlar göstərir ki, bu ölkələr öz sərhədlərini, müstəqilliyini və ərazi bütövlüyünü qorumaqda qətiyyətlidirlər. Qlobal güc mərkəzləri arasında rəqabətin sərtləşdiyi, silahlı toqquşmaların artdığı bir dövrdə bu həm daxili sabitlik, həm də xarici siyasət baxımından güclü mesajdır.

Birgə hərbi təlimlərin daha bir mühüm üstünlüyü orduların müasir texnologiyalara adaptasiyasını sürətləndirməsidir. Çağdaş dövrün müharibələrində pilotsuz uçuş aparatları, müasir idarəetmə sistemləri və kiberhücum texnologiyaları artıq aparıcı rol oynayır. Müttəfiq ölkələrin bu sahədə təcrübə mübadiləsi aparması, vahid texniki standartların formalaşdırılması müdafiə qabiliyyətini yüksəldər və resursların daha səmərəli istifadəsinə imkan yaradar. Hərbi əməkdaşlıq həm də TDT-yə üzv ölkələrin cəmiyyətlərində necə deyərlər, təhlükəsizlik yastığının mövcud olduğu düşüncəsinin formalaşmasına kömək edər. Bütövlükdə, Azərbaycanın bu təşəbbüsü, əslində, TDT-yə üzv dövlətlərin təhlükəsizlik arxitekturasını daha dayanıqlı etmək cəhdidir. Çünki iqtisadi layihələrin, kommunikasiya xətlərinin və enerji marşrutlarının təhlükəsizliyi birbaşa hərbi-siyasi sabitlikdən asılıdır. Təhlükəsizlik zəifdirsə, inkişaf da davamlı ola bilmir. Buna görə də təklif olunan 2026-cı il təlimləri sadəcə növbəti tədbir deyil, gələcək strateji sabitliyin təminatı kimi qəbul olunmalıdır. Nəticə etibarilə, bugünkü mürəkkəb geosiyasi mənzərədə hərbi güc təkcə döyüş meydanında üstünlük deyil, həm də müstəqilliyin qorunmasının əsas şərtidir. Qəbələdə səslənən bu təklif həm tərəfdaşlıq ruhunu gücləndirir, həm də göstərir ki, sülh yalnız güclü müdafiə mexanizmi ilə möhkəmlənə bilər. Regionun gələcəyi naminə bu təşəbbüsün həyata keçirilməsi vacib və vaxtında atılmış addım kimi tarixə düşəcək.

* * *

**Azərbaycan Ordusunun sabiq korpus komandiri, ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov** XQ-



yə açıqlamasında türk dövlətləri arasında təhlükəsizlik, müdafiə və hərbi əməkdaşlıq məsələlərinə xüsusi önəm verilməsinin zərurətdən irəli gəldiyini bildirdi. Onun sözlərinə görə, bu gün geosiyasi arenada gedən proseslər, beynəlxalq təşkilatların ikili standartlarla fəaliyyət göstərməsi TDT ölkələrinin vahid mövqedən çıxış etmələrini şərtləndirir: “Prezident İlham Əliyevin təklifini TDT ölkələrinin özlərini müdafiə etmə bacarığının artırılmasına, təhlükəsizlik təminatının yüksəldilməsinə və hərbi əməkdaşlığının gücləndirilməsinə çağırış kimi qəbul etmək lazımdır. Geosiyasi arenada gedən proseslərə baxdıqda özünüqoruma bacarığının nə qədər önəmli olduğunu görə bilərik. TDT-nin müdafiə qabiliyyətinin gücləndirilməsi, hərbi əməkdaşlığının artırılması da əlbəttə, çox vacib amildir. Çünki inkişafını, təhlükəsizliyini təmin edə bilməyən istər dövlətin, istərsə də təşkilatın gələcəyi sual altında olur. Bu səbəbdən Prezident İlham Əliyev məsələyə xüsusi diqqət yetirmişdir”.

Ş.Ramaldanov dedi ki, müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq qısa dövrün işi deyil. Bunun üçün zaman lazımdır: “Proseslərin idarə olunması və inkişafı, bu ölkələrin birgə fəaliyyət göstərə bilməsi, əlbəttə, məhz hərbi və hərbi-texniki əməkdaşlıqdan keçir. Bizim yaxşı atalar sözümüz var: “Tək əldən səs çıxmaz”. Düşünürəm ki, həmin atalar sözü burada yerinə düşür. Ehtimal etmək olar ki, Prezident İlham Əliyev hərbi əməkdaşlıq, təhlükəsizlik və müdafiə məsələləri barədə danışanda təşkilatın möhkəmləndirilməsinin vacbiliyini nəzərdə tutub. Zənnimcə, Azərbaycan və Türkiyə arasındakı münasibətlər TDT daxilində nümunə kimi qəbul olunur. Qeyd edildiyi kimi, təkcə son bir ildə Türkiyə ilə birgə 25-dən çox ikitərəfli və çoxmillətli hərbi təlimlər keçirilib. Azərbaycan və Türkiyə arasında sıx hərbi və hərbi-texniki əməkdaşlıq mövcuddur. Bizim müdafiə sənayemizlə Türkiyənin hərbi-sənaye kompleksinin birgə fəaliyyəti var. Bütün bunlar digər dövlətlərin TDT-yə maraq göstərməsini təmin edən bəlkə də əsas amillərdir. Bu müttəfiqliyin hansı səviyyədə olduğunu bütün dünya, o cümlədən digər türk dövlətləri, müsəlman aləmi görür. Mənə elə gəlir ki, bu da geosiyasi proseslərin indiki gərgin dövründə TDT ölkələrinə eyni platformada bir yumruq kimi birləşərək öz müdafiələrini təşkil etmələri, suverenliklərini və maraqlarını qorumaları üçün böyük üstünlüklər yaradır”.

Hərbi ekspert bildirdi ki, Azərbaycan Türkiyə ilə yanaşı Qazaxıstan, Özbəkistan, Qırğızıstanla ikitərəfli və çoxtərəfli təlimlər keçirib: “Ancaq TDT-yə üzv dövlətlərin hamısının birgə hərbi təlim keçməsi olmayıb. İndi bu məsələ artıq təşkilatın gündəliyinə daxil olub. Düşünürəm ki, yaxın zamanlarda məhz Azərbaycanda birgə hərbi təlimlərin keçirilməsini görəcəyik”.

***Səxavət HƏMİD***
***XQ***

# Populizm, xarici təsir və süni intellekt

*Avropada demokratiyanı bu 3 təhlükədən qorumaq çağırışları*



**Avropa demokratiyası son illər təhlükəli sınaqlardan keçir. Bu sınaqlar siyasi sistemin sabitliyini və onun dəyərlərini sarsıdır. Daha dəqiq desək, “Qoca qitə”nin demokratiya sistemi avtoritar dövlətlərin informasiya manipulyasiyası, hibrid müharibə üsulları, süni intellektin nəzarətsiz inkişafı, həmçinin transmilli korporasiyaların dövlətlər üzərində artan təsirləri səbəbindən mürəkkəbləşir.**

## Populizm amili

Populizm və millətçilik ideologiyalarının yüksəlişi müxtəlif coğrafiyaların geosiyasi mənzərəsinə təsir göstərir. Populist qüvvələr Aİ ölkələrində sosial narazılıqları manipulyasiya edərək “xalqın səsi” adı altında demokratik institutlara qarşı inamsızlığı dərinləşdirirlər. Onların strategiyaları nə qədər sadə olsa da, Avropa cəmiyyətlərini qorxu üzərində yenidən formalaşdırmaq gücünə malikdir. Vəziyyəti dərindən analiz etsək görərik ki, miqrasiya axını, bazarların qloballaşması, milli suverenliyin itirilməsi kimi mövzular populist ritorikanın əsas silahına çevrilib. Məhz bu ritorika vasitəsilə müxtəlif cəmiyyətlərə “xalq təhlükədədir, bunun günahkarları isə Brüsseldədir” mesajı ötürülür. Amma bir çoxları qəbul etmək istəmir ki, populistlərin “qidalanmasına” zəmin yaradan əsas amil elə Aİ-nin institusional strukturudur.

Qurum daxilində hələ də vahid hökumət formalaşmayıb. Parlament və məhkəmə sisteminin mövcudluğuna baxmayaraq, icra hakimiyyəti müxtəlif orqanlar arasında bölünüb. Bunun əyani sübutu Avropa Komissiyası və Avropa Şurasının fərqli milli maraqları təmsil etmələridir. Şübhəsiz, belə bir sistemdə qərarların siyasi məsuliyyətini dəqiq müəyyənləşdirmək, demək olar ki, mümkünsüzdür. İşin maraqlı tərəfi odur ki, bu qeyri-müəyyənlik uzun illər müxtəlif hökumətlərin xeyrinə işləyib. Onlar Aİ-nin qərar qəbuletmə mexanizmlərində fəal iştirak etsələr də, mürəkkəb və siyasi çəkili qərarların məsuliyyətini “Brüssel bürokratlarına” yönləndirməklə siyasi təzyiqlərdən yayınırdılar.

Populistlərin fəaliyyətlərini xarici təhdidlərə qarşı müdafiə tədbiri kimi qələmə vermələri cəmiyyətin gözündə pərdə asmağa xidmət edirdi. Xüsusilə də sosial rifahın aşağı olduğu təbəqələr üçün bu ritorika əsl “xalq iradəsi” təəssüratı yaratdı, siyasi elitanın xalqı görməzdən gəldiyi düşüncəsini möhkəmləndirdi. Populistlərin Aİ-ni əlverişli siyasi hədəfə çevirmələrinin digər səbəbi də qurum institutlarının, xüsusilə də Macarıstan və Polşa kimi ölkələrdə “Aİ-nin əsas dəyərlərini” pozması barədə reaksiyaları oldu. Bu dəyərlər Avropa İttifaqı Haqqında Müqavilənin (TEU) 2-ci maddəsində təsbit olunub və hüququn aliliyi, insan haqlarına hörmət kimi prinsipləri özündə ehtiva edir.

Müqavilənin 7-ci maddəsinə görə, Aİ Şurası hər hansı bir üzv dövlətin ümumi dəyərləri sistematik şəkildə pozduğunu müəyyənləşdirmək səlahiyyətinə malikdir. Əgər pozuntu halı təsdiqlənərsə, həmin dövlətin nümayəndəsinin səsvermə hüququnun dayandırılması da daxil olmaqla, bir sıra sanksiyalar tətbiq oluna bilər. Sözsüz ki, bu tədbirlər populist hökumətləri cəzalandırmaqdan daha çox, Aİ-nin əsas dəyərlərinə qarşı sistemli pozuntulara cavab verməyə xidmət edir. Amma bu mexanizmlərin praktiki baxımdan işləməsi milli hökumətlərin siyasi iradəsindən asılıdır. Bugünədək Aİ-nin bu sahədəki səyləri bəzi üzv dövlətlərin siyasi passivliyi səbəbindən arzuolunan nəticəni verməyib.

**Ekspert rəyi**



**Fərhad MƏMMƏDOV,**
**politoloq**

Avropa İttifaqının qarşısında duran ən böyük problem təhlükəsizlik məsələsidir. Bir tərəfdən Rusiya Ukraynaya qarşı müharibə aparır və bu müharibədə Aİ açıq şəkildə tərəfini seçib – Ukrayna. Bu isə onu dolayısı ilə Rusiya ilə toqquşma riski ilə üz-üzə qoyur. Avropa ölkələrinin hava məkanına müdaxilələr, kiberhücumlar və informasiya manipulyasiyaları davam edir. Bu da İttifaqın təhlükəsizlik sistemini ciddi sınağa çəkir. Digər tərəfdən, Aİ-nin təhlükəsizlik sahəsində ənənəvi müttəfiqi olan ABŞ-la münasibətləri əvvəlki kimi sabit deyil. Rəsmi Vaşinqton bir tərəfdən Avropa mallarına tariflər tətbiq edir, digər tərəfdən enerji və sənaye məhsullarının ixracında müəyyən məhdudiyyətlər qoyur. Bu addımlar Aİ-nin açıq bazar prinsiplərinə ziddir və transatlantik münasibətlərdə iqtisadi gərginlik yaradır. Beləliklə, Avropa həm Rusiya tərəfindən hərbi və siyasi çağırışlarla üzləşir, həm də ABŞ tərəfindən iqtisadi təzyiq hiss edir. Ağ Ev Avropanı bərabərhüquqlu tərəfdaşdan çox maliyyə və silah bazarı kimi görür, dəstəyini “pullu xidmət” formasında təqdim edir.

İkinci mühüm məsələ Aİ-nin daxili vəziyyətidir. Son illər bir sıra üzv dövlətlərin ümumi xəttə zidd siyasət yürütmələri müşahidə olunur. Aİ demokratik prinsiplər və konsensus əsasında fəaliyyət göstərsə də, bəzi hallarda böyük dövlətlər kiçik ölkələrə öz mövqelərini qəbul etdirməyə çalışırlar. Bu isə ittifaq daxilində qərarların legitimliyinə və bərabərlik prinsipinə zərbə vurur. Daxildə, həmçinin liderlik böhranı hiss olunur. Ənənəvi olaraq Avropaya istiqamət verən Fransa və Almaniyanın liderləri son illər öz ölkələrində də legitimlik böhranı yaşayırlar.

Populizmin yüksəlişi və siyasi parçalanma da təhdidlər sırasındadır. Amma bu, daha çox idarəolunan və sistem daxilində cavab verilə bilən problemlərdir. Ən təhlükəliləri isə Aİ-nin mövcudluğunu birbaşa sual altına alan “ekzistensial təhdidlər”dir. Məsələn, təhlükəsizlik xərclərinin kəskin artması Avropanın inkişaf və genişlənmə planlarını faktiki olaraq dayandırıb. Yaxın perspektivdə prosesin davam edəcəyi gözlənilir və İttifaqın həm institusional dayanıqlığı, həm də genişlənmə strategiyası ciddi çətinliklərlə üzləşəcək.

## Süni intellekt bəlası

Bir vaxtlar uzaq gələcəyin texnoloji vədi kimi görünən bu fenomen Avropada demokratik idarəetmənin özülünü sınağa çəkir. Onun təsiri özünü daha çox Aİ-nin informasiya sisteminə müdaxiləsində büruzə verir. Bu yolla idarə olunan sosial media platformaları reallıq əvəzinə, emosional məzmunu gücləndirməyi üstün tuturlar. Bu halda vətəndaşların alternativ baxış bucaqları inkişaf etmir. Süni intellektdən istifadə demokratik müzakirələri zəiflədir, cəmiyyətlərin konsensus qurmasını və ictimai institutlara etimadını çətinləşdirir. Əvvəllər insan tərəfindən idarə olunan dezinformasiya kampaniyaları süni intellektin həqiqətəbənzər, lakin saxta hekayələr yaratmaq qabiliyyəti ilə daha da güclənir. Saxta təsvirlər, səs yazıları siyasi fiqurları və hadisələri demək olar ki, qüsursuz şəkildə təqlid edir.

Bu texnologiyalar seçki prosesinə inamı sarsıdır. Avropa demokratiyası çoxdilli və çoxmədəniyyətli olduğundan manipulyasiya üçün əlverişli hesab olunur. Proqnozlaşdırılan alqoritmlər gələcək riskləri qiymətləndirmək, resursları bölüşdürmək və siyasəti yönləndirmək üçün istifadə olunur. Ona görə də vətəndaşlar müxtəlif situasiyalarda məsuliyyət daşıyanın kim olduğunu müəyyənləşdirə bilmirlər. Bu qeyri-müəyyənlik demokratik legitimliyi zəiflədir və Avropa idarəetməsinin əsas prinsipi olan insan nəzarətini təhlükə altında qoyur.

Süni intellektin iqtisadiyyatda rolu da demokratik balansı pozur. Avtomatlaşdırma prosesi idarə edənlər və ondan asılı olanlar arasında yeni bərabərsizlik formaları yaradır. Belə olan halda güc Avropadan kənarda yerləşən texnologiya nəhənglərinin əlinə keçir. Aİ daxilində bu təhlükənin qarşısını almaq məqsədilə mühüm addımlar atılır. Problemin həlli istiqamətində ilk qanunvericilik təşəbbüsü olan “Süni İntellekt Aktı” bu sistemi tənzimləməyi və şəffaflığı hədəfləyir. Lakin texnologiyanın sürətli inkişafı bəzən qanunvericilik prosesini də qabaqlamağı bacarır. Bu sahədə qanunların tətbiqi üzv ölkələrin siyasi iradəsi və texniki imkanlarından xeyli dərəcədə asılıdır.

## Xarici müdaxilələr

Avropanın demokratik sistemini zəiflədən digər amil xarici təsirlərdir. Kiberhücumlar, təbliğat və sosial media vasitəsilə xarici qüvvələr seçkilərə, parlamentə, hətta müstəqil mediaya belə inamı sarsıtmağa cəhd edirlər. Onlar əksər hallarda yalan məlumatlar uydurmaq əvəzinə, mövcud ictimai parçalanmaları gücləndirməklə ideoloji qarşıdurma yaradırlar. Qarşıdurmalar öz növbəsində maliyyə şəbəkələrinə, siyasi lobbiçiliyə və mediaya təsir göstərir. Xarici müdaxilələrə ən çox seçki məkanlarında rast gəlmək mümkündür.

Ümumiyyətlə, son illər seçkilərin nəticələrini saxtalaşdırmaq cəhdlərinin artdığı qeyd olunur. Hədəfli dezinformasiya, manipulyativ narrativlər demokratik iştirak səviyyəsinə birbaşa təsir edir. Avropadakı radikal qüvvələr əksər hallarda gizli xarici dəstəkdən faydalanırlar. Bəzi rejimlər liberal-demokratik Avropa modelinə qarşı avtoritar, iyerarxik və sağ-millətçi idarəçilik formalarını alternativ kimi təqdim edirlər. Beləliklə, demokratik mühitdə tədricən avtoritar ritorika normallaşır. Bu istiqamətdə tətbiq olunan hüquqi məhdudiyyətlər isə çox vaxt “milli suverenlik” adı altında təqdim edilir. Lakin bir məqamı da unutmamalıyıq ki, xarici müdaxilənin nəticələri daha realdır. Çünki vətəndaşlar qərarların xarici təsirlə formalaşdığına şahidlik etdikləri zaman dövlət institutlarına inam azalır. Bu isə siyasi qütbləşməni dərinləşdirir, cəmiyyətləri parçalayır.

Nəticədə dialoqa, kompromisə qapılar bağlanır. Bəzən hökumətlər vəziyyəti ələ almaq üçün sərt təhlükəsizlik tədbirləri görməyə məcbur qalır, onlayn məzmunu məhdudlaşdırırlar. Ona görə də, Aİ-nin institusional sisteminin proseslərə çevik reaksiya verməkdə çətinlik çəkməsi təəccüb doğurmamalıdır.

***Nəzrin ELDARQIZI***
***XQ***

# 2013-cü il oktyabrın 9-da keçirilmiş seçkilərdə…

(əvvəli 1-ci səhifədə)



***On il bundan əvvəl birinci dəfə prezident vəzifəsinə seçiləndə söz vermişdim ki, əgər xalq mənə etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam. Şadam ki, on il ərzində qarşıda duran bütün vəzifələr uğurla icra edildi. Hesab edirəm ki, prezident seçkilərində Azərbaycan xalqının mütləq əksəriyyətinin öz səsini bu siyasətə verməsi bir daha onu göstərdi ki, son on il ərzində verilən bütün vədlər icra edildi. Azərbaycan xalqı görülmüş işlərə öz qiymətini, öz səsini verdi. Eyni zamanda, bu səsvermədə gələcəklə bağlı öz fikirlərini, arzularını ifadə etdi.***

*Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyevin Milli Məclisdə keçirilən təntənəli andiçmə mərasimindəki nitqindən*
*19 oktyabr 2013-cü il.*

Ölkə seçicilərinin böyük əksəriyyətinin öz səsini yenidən İlham Əliyevə verməsi Heydər Əliyev siyasi kursuna olan inam və etimadın göstəricisi idi. Mütəxəssislərin fikrincə, Azərbaycan xalqı ulu öndərin siyasi xəttini dəstəkləməklə yanaşı, həm də seçkidən əvvəlki 10 ildə qazanılan böyük nailiyyətlərə, sürətli inkişafa və qazanılan uğurların davam etdirilməsinə səs vermişdi. Çünki 2003-cü ilin oktyabrından sonra Azərbaycan dövlətinin siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənmiş, ölkəmizin dünyadakı nüfuzu nəzərəçarpacaq dərəcədə artmışdı. Nəticədə, Prezident İlham Əliyevin uğurlu siyasəti dünyanın bütün qabaqcıl ölkələri tərəfindən qəbul olunurdu.

Bu bir fakt idi ki, Prezident İlham Əliyev 2003-cü ildəki seçkilərdən sonra müstəqil siyasət yürüdə biləcək azsaylı dövlət başçılarından biri kimi beynəlxalq miqyasda böyük nüfuz qazanmışdı. Məhz onun rəhbərliyi ilə Azərbaycan regionun lider dövlətinə çevrilmişdi. Reallaşdırılan qlobal və regional layihələr ölkəmizin dünyaya inteqrasiyasını sürətləndirmiş, güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın devizinə çevrilmişdi. Ölkə əhalisinin fikrincə, Prezident İlham Əliyevin 2003-cü ilin payızından sonra həyata keçirdiyi inkişaf konsepsiyasını hər bir azərbaycanlı öz həyatında hiss etməyə başlamışdı.

Bütün bunları dövlət başçımız ötən il fevralın 14-də keçirilən andiçmə mərasimində daha aydın şəkildə ifadə etmişdi: "Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan – Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik".

O, dedi və etdi. Nəyi, nə zaman, necə etməyin lazım olduğunu hamıdan yaxşı bilən İlham Əliyev nəinki indi haqqında söz açdığımız 2013-cü il seçkilərindən sonra, ümumiyyətlə, son 22 ildə istənilən addımı ilə Azərbaycan xalqının arzu və istəklərinin reallaşdırılmasına çalışmış və nail olmuşdur. Biz bu arqumentlərimizin təsdiqini qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın ötən il noyabrın 8-də Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda da görürük: "Ali Baş Komandanlığınızla qazanılan bu Zəfər Azərbaycanla birlikdə bütün Türk dünyası üçün qürur və ilham mənbəyi olmuşdur. Ötən il Qarabağda uğurla həyata keçirdiyiniz antiterror əməliyyatı ilə tam nəzarəti təmin etdiyiniz bu qədim torpaqlarda 30 ildən sonra ilk dəfə bu il parlament seçkilərinin keçirilməsi də bizi sevindirmişdir. Şuşa Bəyannaməsi ilə taclanan, "Bir millət, iki dövlət" şüarı ilə təcəssüm olunan sarsılmaz dostluq və qardaşlıq tellərimizdən aldığımız güclə işğaldan azad edilmiş bölgələrin bərpa və yenidənqurma işlərinə hər cür dəstəyi verməyə hazır olduğumuzu ifadə etmək istəyirəm. Regionumuzda davamlı sülhün, əmin-amanlığın və sabitliyin təmin edilməsi üçün ikitərəfli səviyyədə və beynəlxalq platformalarda sıx əməkdaşlığı, həmrəyliyi və koordinasiyamızı davam etdirəcəyimizə ürəkdən inanıram".

Biz cənab Prezidentimizin siyasi uzaqgörənliyi, qətiyyəti, əzmkarlığı və prinsipiallığı barədə deyilənlərin təsdiqini Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın bu ilin 8 avqustundan bəri bir neçə dəfə dilə gətirdiyi fikirlərdə də görürük. D.Trampın Azərbaycan Prezidentinə "Siz böyük lidersiniz." – deməsi də dövlətimizin və xalqımızın bədxahlarının yuxusunu ərşə çəkmişdi, "Sizə daha bir hədiyyəm var. Bu, Ağ Evin rəmzi açarıdır. Mən bunu nadir hallarda təqdim edirəm", – deyə dünyanın ən güclü dövlətinin baş ofisinin rəmzi açarını Azərbaycan Prezidentinə təqdim etməsi də.

Yeri gəlmişkən, bəzi dövlət başçıları vaxtilə kiminsə diktəsi və ya hansısa maraq müqabilində Azərbaycanla əməkdaşlıqdan çəkindiklərinə görə bu gün açıq şəkildə peşmanlıq hissləri keçirirlər. Bu faktı bizim – yəni azərbaycanlı jurnalistlərin – deməyimizlə əcnəbi siyasətçilərin söyləməsinin olduqca böyük fərqi var. Məsələn, bugünlərdə Macarıstanın xarici işlər və xarici ticarət naziri Peter Siyarto sosial şəbəkədə yazmışdı ki, biz on beş il əvvəl qarşılıqlı hörmət və fayda əsasında Azərbaycanla tərəfdaşlıq qurmağa başlayan dönəmlərdə, bəzi Avropa liderləri bizi məsxərəyə qoyur və bizə dərs keçməyə çalışırdılar: "Bu gün isə həmin liderlərin özləri Bakıda Prezident İlham Əliyevlə şəkil çəkdirmək üçün növbəyə dayanırlar".

2013-cü ildə keçirilmiş prezident seçkiləri barədə danışarkən həmin illər üçün xarakterik olan məsələlərdən birini xatırlatmaq istərdim. Cənab Prezident 2011-ci il martın 1-də Bakı Biznes Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda demişdi ki, biz sadəcə olaraq hansısa qısamüddətli inkişaf planının icrası ilə deyil, ölkəmizin uzunmüddətli strategiyasının hazırlanması ilə məşğuluq: "Bu gün, 10 ildən, 20 ildən sonra nələr baş verəcək? Azərbaycan hər bir çağırışa, hər bir vəziyyətə hazır olmalıdır. Bizim imkanlarımız vardır. Bununla bərabər, bizim düşünülmüş siyasətimiz vardır. Biz dünyada gedən prosesləri izləyirik, bilirik. Azərbaycan bu gün regionun sabitliyi, iqtisadi və siyasi sabitliyin möhkəmləndirilməsi üçün çox mühüm ölkəyə çevrilibdir. Biz bunu siyasətimiz, apardığımız islahatlar, düşünülmüş addımlarımızla etmişik. Bu gün Azərbaycan regional faktor kimi dünya tərəfindən qəbul edilir. Azərbaycanın təsir imkanları artır. Azərbaycanın gücü artır. Azərbaycanda hökm sürən ictimai-siyasi sabitlik bütün bu reallıqlara çatmaq üçün mühüm rol oynamışdır. Eyni zamanda, islahatlar, ölkəmizin liberallaşması, xoşagəlməz hallara qarşı ciddi mübarizə, bizim strateji xəttimizdir".

Yəni, ölkəmiz 2008-ci il prezident seçkilərindən 2013-cü il seçkilərinədək cəmiyyət həyatının bütün sahələrində yeni-yeni uğurlara imza atmışdı. Ordumuz heç zaman olmadığı səviyyədə müasirləşdirilmiş, "hücum diplomatiyası" günün reallığına çevrilmiş, üçrəngli bayrağımız kosmosdakı süni peykimizin üzərində inkişaf etmiş ölkələrin bayraqları və peykləri ilə yanaşı dövr etməyə başlamış (2013-cü il fevralın 8-də Azərbaycan kosmosa "Azerspace-1" ilk süni peykini buraxmışdır), ölkəmiz dünya tarixinə "Bakı Prosesi" adıyla düşmüş mükəmməl bir layihənin icrasına nail olmuş (2008-ci ilin 2–3 dekabr tarixində təşkil olunan Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransına Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq 10 islam ölkəsi dəvət edilmişdi) və onlarca belə uğurlarımız olmuşdu.

Ancaq mənə elə gəlir ki, dövlət başçımızın 2013-cü ildəki ən böyük uğuru postsovet məkanının heç yerində analoqu olmayan bir sosial layihənin icra edilməsi idi. Həmin ilin yayında Bakıda "Jurnalistlər şəhərciyi"nin ilk binası istifadəyə verilmiş və 155 həmkarımızın mənzil şəraiti yaxşılaşdırılmışdı. Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, iyulun 22-də cənab Prezident istifadəyə verilən ilk binanın açılışına gəlmiş və biz jurnalistlərlə şəkil çəkdirmişdi.

Torpaqların cah-cəlallı, suverenliyin əbədi, ordun güclü, bayrağın uca, Liderin var olsun, Azərbaycan!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Türk dövlətləri "kiber qalxan" çətiri altında

## *TDT-nin yeni "rəqəmsal təhlükəsizlik bloku" formalaşdırılır*

**XXI əsrdə dövlətlər artıq yalnız ənənəvi hərbi təhdidlərlə qarşılaşmır. Rəqəmsallaşma dövründə kibertəhlükələr milli təhlükəsizlik, suverenlik, iqtisadi sabitlik və sosial birliyin əsas elementi halına gəlib. İnformasiya müharibələri, casusluq, dezinformasiya, təchizat zənciri hücumları və transmilli haker hücumlarına qədər risk mənzərəsi çoxölçülüdür. Regional təşkilatlar üçün siyasətin koordinasiyası, kəşfiyyat mübadiləsi, insidentlərə cavab, standartlaşdırma və hüquqi çərçivələrin uyğunlaşdırılması üzrə birgə mexanizmlərə ehtiyac kəskin şəkildə artıb. Xüsusilə ortaq tarixə, dilə və strateji maraqlara malik dövlətlər üçün əməkdaşlıq həm xərcləri azaltmağa, həm də kiber gücü artırmağa kömək edə bilər. Yeni dünya düzəninə qədəm qoyduğumuz vaxt türk dövlətlərinin kibertəhlükəsizlik qalxanı altında birləşməsi vacibdir.**



Məhz bu qlobal kontekstdə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev oktyabrın 7-də Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçılarının XII Zirvə toplantısında təşkilat daxilində Kibertəhlükəsizlik Şurasının yaradılmasını təklif edib. Bu, kibertəhlükələrin müasir münaqişələrin əsas elementi olduğunu qəbul etməklə yanaşı, türk dövlətləri arasında daha sıx koordinasiyaya yönələn strateji addım olacaq. Ölkəmizin qarşılaşdığı kiberhücumlara nümunə kimi, çox da uzağa deyil, bu ilin fevralına nəzər salmaq kifayətdir. Fevralın 20-də nüfuzlu media şirkəti "Global Media Group" hədəf alınaraq kiberhücumla üzləşmişdi. Analitiklər bu hücumun arxasında müxtəlif siyasi motivlərin dayandığını vurğulamış, onun yalnız texniki problem kimi görünmədiyini, həm də informasiya və geosiyasi təsir vasitəsi olduğunu qeyd etmişdilər. Qlobal səviyyədə isə kibermüharibə nümunələri daha geniş miqyasda müşahidə olunur. Məsələn, İran–İsrail və ABŞ–Çin arasında gedən proksi münaqişələrdə haker hücumları strateji, siyasi və iqtisadi üstünlüklərin qazanılması üçün istifadə edilir.

* * *

TDT daxilində nəzərdə tutulan Kibertəhlükəsizlik Şurası məhz bu kimi amillər nəzərə alınaraq və mövcud milli strukturların təcrübəsinə və regional ehtiyaclara əsaslanaraq bir sıra mühüm istiqamətlərdə fəaliyyət göstərə bilər. Bu istiqamətlər həm praktiki, həm də strateji səviyyədə inteqrasiyanı dərinləşdirməyi hədəfləyir. Yeni Şura ilk növbədə üzv ölkələr arasında kibertəhlükəsizlik standartlarının, anlayışların və normativ yanaşmaların birləşdirilməsini təmin edə bilər. Hüquqi çərçivələrin yaxınlaşdırılması – xüsusən də kiber cinayətlərin tərifi, cəzalandırma mexanizmləri və məlumat mübadiləsi qaydaları üzrə koordinasiya vacib istiqamət olacaq. Bundan əlavə, "Türk regionunun kibertəhlükəsizlik strategiyası" kimi birgə strateji sənədin hazırlanması həm milli, həm də regional siyasətlərin sinxronlaşdırılmasına şərait yarada bilər.

Müasir kibertəhlükələr sürətlə dəyişir və çox zaman transmilli xarakter daşıyır. Şura bu baxımdan üzv ölkələr arasında real vaxt rejimində məlumat paylaşımı mexanizmini formalaşdıra bilər. Kiberhücumlar, boşluqlar və texniki göstəricilər barədə koordinasiyalı xəbərdarlıq sistemi regionda kollektiv müdafiə imkanlarını gücləndirər. Transmilli hücumlar zamanı birgə cavab mexanizmlərinin tətbiqi Türk dövlətləri arasında operativ sinxronizasiya yaradacaq.

Kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlanması və bilik mübadiləsi Şuranın əsas istiqamətlərindən biri ola bilər. Üzv ölkələr arasında təlim proqramları, mütəxəssis mübadiləsi və birgə tədris kurslarının təşkili bu sahədə səmərəli əməkdaşlığı gücləndirəcək. Sertifikatların qarşılıqlı tanınması mexanizmi peşəkarların region daxilində sərbəst fəaliyyətinə şərait yaradacaq. Bu istiqamətdə "Türk Kiber Akademiyası" tipli ortaq tədris və tədqiqat mərkəzinin yaradılması strateji əhəmiyyət daşıya bilər.

Kibertəhlükəsizlik yalnız texnoloji deyil, həm də hüquqi və diplomatik ölçüləri olan sahədir. Şura bu istiqamətdə kibercinayətlər üzrə hüquqi yardımlaşma, ekstradisiya və müştərək istintaq mexanizmlərinin formalaşdırılmasına dəstək verə bilər. Eyni zamanda, beynəlxalq platformalarda – məsələn, BMT, ITU və Avropa Şurası kimi qurumlarda Türk dövlətlərinin ortaq kiberdiplomatiya mövqeyinin gücləndirilməsi mümkün olar.

* * *

Türkiyə, Azərbaycan, Qazaxıstan və Özbəkistan kimi ölkələrin artıq mövcud kibertəhlükəsizlik institutları bu təşəbbüs üçün güclü baza yaradır. Qırğızıstan və digər üzvlər də bu sahədə sürətlə inkişaf edir. Regional Şura bu potensialı birləşdirərək hüquqi uyğunluq, koordinasiya və birgə strategiya vasitəsilə sinerji yarada bilər. Uğurun açarı isə ədalətli iştirakın təmin olunması, qarşılıqlı etimadın qurulması, hüquqi harmonizasiya, davamlı maliyyələşmə və milli suverenliklə kollektiv fəaliyyət arasında tarazlığın qorunmasından asılı olacaq. Əgər bu balans düzgün qurularsa, Kibertəhlükəsizlik Şurası regionun təhlükəsizlik arxitekturasının əsas sütunlarından birinə çevriləcək və təkcə kiberhücumlara qarşı deyil, həm də dayanıqlı inkişaf, rəqəmsal suverenlik və Türk dünyasının qlobal mövqeyinin möhkəmlənməsi istiqamətində strateji rol oynayacaq.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Bəhruz ƏLİYEV,**
**Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının eksperti**

Rəqəmsal məkanda hücumların artması, sərhədləri aşan kibertəhlükələrin yalnız bir ölkənin işi olmadığı hər zaman vurğulanan məsələlərdən biridir. Artıq TDT daxilində kibertəhlükəsizlik üzrə əməkdaşlıq sahəsində fikirlərin səslənməsi müsbət tendensiyadır. Bir ölkədə zəiflik varsa, hücum başqa ölkələrə də keçə bilər. Bu cür şura yardımı ilə zəif müdafiələr gücləndirilə bilər, beləliklə, bütün blok daha sağlam vəziyyətə gəlmiş olar. Ortaq treninq proqramları, sertifikatlaşdırma, ekspert mübadiləsi daha əlçatan olar, ölkələrin ekspert çatışmazlığı aradan qaldırıla bilər. Belə bir struktur Türk dövlətlərinin beynəlxalq səviyyədə "rəqəmsal təhlükəsiz blok" kimi tanınmasına imkan verər, xarici tərəfdaşlarla (NATO, AB, BMT) münasibətlərdə müsbət predmetlərdən biri ola bilər.

Kibertəhlükəsizlik sahəsi hazırda çox dinamikdir və bir sıra çağırışlarla üzləşir. Məsələn: Ransomware (fidye tələbi) hücumları ilə sistemlərinin şifrələnilməsi və fidyə ödənilməsinə məcbur edilməsi halı geniş yayılıb. DDoS (Distributed Denial of Service), botnetlər, APT (Advanced Persistent Threat) hücumları ölkələrin dövlət və özəl sektorlarına yönəlir. Kritik infrastruktur sistemlərinə (elektrik şəbəkələri, su təsərrüfatı, nəqliyyat, telekommunikasiya) yönəlmiş hücumların kombinasiyası genişlənir. Zərərli kod (malware), casus proqramlar, kiber casusluq, zərərli fişinq kampaniyaları kimi klassik metodlar inkişaf edir. Yeni texnologiyaların (AI, IoT, 5G/6G) tətbiqi ilə hücum vektoru daha da çoxalır. Kiberhücumların "sərhəd tanımaması" (yəni bir ölkədən digərinə keçə bilməsi) təhlükəli məqamdır. Bu, dövlətlərarası əməkdaşlığı vacib edir, çünki bir hücumun mənşəyi və ya tranzit marşrutu başqa ölkədən keçə bilər.

Dövlətlərarası etimad, aydın hüquqi çərçivə, kadr hazırlığı, təlim proqramları və ekspert mübadiləsi, infrastruktur investisiyaları (ortaq monitorinq mərkəzləri, laboratoriyalar, SOC-lar), fövqəladə hallarda sürətli reaksiya mexanizmi, davamlı yenilik və adaptasiya (yeni texnologiyalara hazırlıq), xarici əməkdaşlıqlar və beynəlxalq təşkilatlarla əlaqələr çox əhəmiyyətli məsələlərdir. Şəxsi qənaətim belədir ki, bu təşəbbüs müasir dövrdə tam məntiqli və zəruridir, çünki kibertəhlükələr yalnız milli səviyyədə qarşısı alınabilən məsələ deyil, dövlətlərarası əməkdaşlıq tələb edən məsələlərdəndir. İlkin mərhələdə pilot layihələr, kiçik ortaq monitorinq sistemləri, ekspert mübadiləsi proqramları ilə başlamaq mümkündür. Zamanla, həm regional kibermüdafiə blokuna çevrilmək olar, həm də beynəlxalq kibertəhlükəsizlik təşəbbüsləri ilə əlaqəli "Türk kibertəhlükəsizlik platforması" kimi fəaliyyət göstərə bilər. Qısa müddətdə qarşılıqlı məlumat mübadiləsi və təcili reaksiya mexanizmi qurmaqla başlanğıc əldə edilə bilər. Uzun müddətdə isə vahid kibertəhlükəsizlik arxitekturası, standartlar və müdafiə sistemi inşa edilməsi mümkündür.

# Leyla Əliyeva London iqlim dialoqunda





**Londonda yerləşən tarixi Marlboro Sarayında "Dəniz səviyyəsinin dəyişməsi və qeyri-bərabər nəticələr: Xəzər dənizi və inkişaf etməkdə olan kiçik ada dövlətləri (SIDS) üzrə təcrübələr" adlı yüksəksəviyyəli iqlim dialoqu keçirilib.**

56 ölkəni birləşdirən Millətlər Birliyi ilə əməkdaşlıq çərçivəsində təşkil edilən tədbirdə Londondakı diplomatik korpusun nümayəndələri, həmçinin diplomatik korpusun marşalı, Böyük Britaniya Xarici İşlər Nazirliyi və digər dövlət qurumlarının nümayəndələri, kiçik ada dövlətlərinin təmsilçiləri, iqlim təşkilatları və media nümayəndələri, Millətlər Birliyi Katibliyinin əməkdaşları, gənc liderlər və digər qonaqlar iştirak ediblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə çıxış edərək Xəzər dənizinin səviyyəsinin azalması probleminə diqqət yönəldib. O qeyd edib ki, son 30 ildə dünyanın ən böyük göllərinin su itkisinə məruz qalması və plastik tullantılarla çirklənməsi vəziyyəti daha da ağırlaşdırır. O, Azərbaycanda COP29-un uğurla keçirildiyini xatırladaraq, COP30-a gedən yolda artıq ideyalardan çox əməli addımların atılmasının vacibliyini vurğulayıb. Leyla Əliyeva rəhbəri olduğu IDEA İctimai Birliyinin təbiətin qorunması və gənclərin bu prosesə cəlb edilməsi istiqamətində apardığı fəaliyyətlərdən də söz açıb. Leyla Əliyeva çıxışının sonunda qeyd edib ki, təbiətə münasibət insanlığa münasibətin göstəricisidir və Xəzərə laqeyd yanaşmamaq onun həyat dolu gələcəyinə ümid yaradır.

COP29-un Sədri və Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev çıxışında beynəlxalq birliyi Xəzər üçün də Amazon və digər tropik meşələr kimi həmrəylik göstərməyə çağırıb və bildirib ki, Azərbaycan bu məqsədlə BMT-nin Ətraf Mühit Proqramı ilə birlikdə 2025–2035-ci illəri əhatə edən "Xəzər dənizinin səviyyə enməsi üzrə Fəaliyyət Planı" üzərində işləyir. O, Prezident İlham Əliyevin təşəbbüsü ilə COP29 çərçivəsində Xəzəryanı dövlətlərin birgə bəyannamə qəbul etdiyini və əməkdaşlığın gücləndirildiyini xatırladıb.

Sədr IDEA kampaniyasının Xəzərin biomüxtəlifliyinin qorunmasında mühüm rol oynadığını xüsusi qeyd edib. O, həmçinin Azərbaycanın iqlim dəyişikliyindən əziyyət çəkən kiçik ada dövlətləri ilə həmrəylik göstərdiyini, bu ölkələrdə davamlı inkişaf və adaptasiya layihələrinə dəstək verdiyini bildirib.

Millətlər Birliyinin Baş katibinin müavini Suddhu Arjun Millətlər Birliyinə daxil olan ölkələrin əksəriyyətinin iqlim dəyişikliyinin mənfi təsirlərinə məruz qaldığı barədə danışıb. O bildirib ki, Azərbaycanın COP29 Sədrliyinin xüsusilə kiçik ada dövlətlərinin üzləşdiyi problemlərə həssaslıqla yanaşması və bu problemlərin həlli istiqamətində konkret addımlar atması olduqca təqdirəlayiqdir.

Britaniya Xarici İşlər Nazirliyinin Kiçik Ada Dövlətləri üzrə xüsusi elçisi Tim Hemminqs çıxışında ötən il COP29-un əldə etdiyi uğurlara nəzər yetirib, dəyişən su səviyyələrinin yaratdığı problemlərin miqyasını nəzərə alaraq Britaniya XİN-in bu istiqamətdə məsələlərə dəstək vermək üçün bir sıra layihələr həyata keçirdiyini deyib.

"Whale Guardians" təşkilatının həmtəsisçisi və icraçı direktoru Maykl Fişbek Xəzər dənizinin bioloji müxtəlifliyinə diqqət yönəldərək nəzərə çatdırıb ki, Xəzərin suyunun azalması qlobal okeanlarda baş verə biləcək daha genişmiqyaslı proseslərin xəbərçisidir.

Fişbek Azərbaycanın ölkə Prezidentinin rəhbərliyi altında COP29 zamanı göstərdiyi liderliyi və yaşıl enerji sahəsində planlarını yüksək qiymətləndirib.

Tədbirdə Baham, Maldiv, Antiqua və Barbuda kimi kiçik ada dövlətlərinin Londondakı səfirləri danışaraq dəniz səviyyəsinin qalxmasının bu ölkələrin mövcudluğu üçün birbaşa təhlükə yaratdığını deyib, COP29 Sədrliyinə belə vacib məsələyə diqqət yönəltdiyi üçün təşəkkür ediblər.

Tədbirdə Azərbaycan təbiətinə həsr olunmuş sərgi də nümayiş etdirilib.

***XQ***

# Dənizkənarı Milli Park beynəlxalq qiymət aldı

**Dənizkənarı Milli Park nüfuzlu "Green Flag Award" beynəlxalq mükafatına layiq görülüb. Mükafat dünyanın ən mötəbər park idarəçiliyinin qiymətləndirilməsi sistemlərindən biri kimi, ictimai istirahət məkanlarında yüksək idarəetmə standartlarını, cəmiyyət üçün əlçatan, təhlükəsiz və baxımlı, ekoloji baxımdan dayanıqlı yaşıl ərazilərin saxlanması və inkişaf etdirilməsini qiymətləndirir.**




"Green Flag Award" proqramı 1996-cı ildə təsis edilmiş və hazırda 20-dən artıq ölkədə tətbiq olunan beynəlxalq ekoloji qiymətləndirmə sistemidir.

Dənizkənarı Milli Parkın bu mükafata namizədliyi bir neçə mərhələdən ibarət beynəlxalq qiymətləndirmə prosesi çərçivəsində həyata keçirilib. Parkın saxlanma və idarəetmə sistemi, ətraf mühit siyasəti, xidmət strukturu, yaşıllaşdırma və təmizlik standartları ilə bağlı əhatəli müraciət və sənədlər toplusu qiymətləndirilib.

Unikal tarixi, təbii-ekoloji və mədəni kompleks kimi Dənizkənarı Milli Parkın qiymətləndirilməsi prosesində onun estetik əhəmiyyəti, Bakı şəhərinin tarixini və müasir inkişafını əks etdirməklə, unikal şəhər mühiti yaratması, ictimai əhəmiyyəti, habelə saxlanması və idarə edilməsində dövlət tərəfindən tətbiq edilən unikal idarəetmə modeli xüsusilə qeyd edilib.

Qeyd edək ki, Dənizkənarı Milli Park öz unikallığı, ekoloji və ictimai əhəmiyyəti, həmçinin saxlanması və qorunması sahəsindəki uğurlarına görə ötən il Niderlandda "International Large Urban Parks Award" (Beynəlxalq Böyük Şəhər Parkları Mükafatı) mükafatına da layiq görülüb.




# Xortlamış Koçaryan sülh üzərində "zəhər tuluğu"na dönüb

## *Robertin inqilab vədi və Azərbaycana qarşı qəzəb ritorikası*

**Ermənistanın ikinci prezidenti, xalqımıza qarşı çoxsaylı qanlı cinayətlərin hazırlanmasında və həyata keçirilməsində bilavasitə əli olan Robert Koçaryan mətbuat konfransı keçirərək, Azərbaycan və Ermənistan arasında sülh prosesini gözdən salmağa, öz aləmində, ölkəsinin gedişatdan heç bir mənfəət götürməyəcəyini əsaslandırmağa çalışıb. Koçaryanın dilə gəlməsi nədən qaynaqlanır, bu barədə yazımızın sonunda söz açacağıq. Hələlik isə...**

Beləliklə, Koçaryanın üzərində dayandığı ilk məqam bu il avqustun 8-də Vaşinqtonda imzalanmış üçtərəfli Bəyanatdan uduşların dəyərləndirilməsidir. Daha doğrusu, o, Azərbaycanın, ABŞ-ın və Ermənistanın sənəddən potensial qazancını "hesablayıb". Koçaryanın fikrincə, Birləşmiş Ştatlar dəhliz, yəni Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirəcək quru yolu və Ermənistan-İran sərhədi üzərində nəzarət, habelə Prezident Donald Trampın Nobel Sülh Mükafatına namizəd irəli sürülməsi üstünlüyünü əldə etdi.

"Azərbaycan Ermənistan ərazisindən keçən dəhliz üzərində hüquq, ATƏT-in Minsk qrupunun buraxılmasını və 907-ci düzəlişin ləğvi hüququnu əldə etdi", - deyən Koçaryan Ermənistanla bağlı hansısa pozitiv fikir bildirsəydi, təəccüblənərdik. Onun iddiasına görə, Vaşinqton bəyannaməsində ölkənin konkret nə qazandığına dair heç bir müddəa yoxdur. Amma: "Nəhayət, Nikol Paşinyan nə əldə etdi? Burada çox konkret bir şey var: o, Trampın imzası olan bir şəkil və hüquqi qüvvəsi olmayan bir kağız aldı. Bu da ona erməni xalqını yenidən aldatmağa imkan verir. Əvvəlcədən belə nəticə çıxarmaq olar ki, Nikol Paşinyan Ağ Evdə sadəcə dekorasiya kimi olub. Orada masa, stul, tablo, bayraq var idi. Paşinyan da həmçinin".

Göründüyü kimi, Koçaryan Paşinyanı məsxərə predmetinə çevirib. Hərçənd, ikinci prezidentin bununla məhdudlaşmadığı, Nikolu daha ağır sözlərə "qonaq etdiyi" birmənalıdır. Məsələyə qayıdacağıq. İndilik onu deyək ki, Koçaryan Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin paraflanmasına da münasibət bildirib. O, məsələni texniki əhəmiyyət daşıyan hadisə kimi qiymətləndirib. Deməli, Qarabağ canisinin mesajı bəllidir – Bakı və İrəvan arasında sülh yoxdur.

Qeyd edək ki, Koçaryan Azərbaycan-Ermənistan barışının xeyli dərəcədə regional kommunikasiyaların işləkliliyindən asılılığını anlamamış deyil. Ona görə bildirir ki, hazırda "Tramp yolu" kimi dövriyyəyə gəlmiş reallığın daxili elementləri genişləndirilməlidir, çünki İrəvanın maraqlarına xidmət etmir. Sən demə, genişlənmə olsa, Azərbaycan tərəfi layihədən imtina edəcək, başqa sözlə desək, razılaşmaya əməl etməyəcəkmiş. Koçaryan fikrini əsaslandırmaq üçün bir neçə cəhəti vurğulayıb. Birincisi, İranın dəhlizdən kənarda qalması. Onun fikrincə, Birləşmiş Ştatlar İranın təmsilçiliyinə icazə verməyəcək. Tehran da sərhədlərin dəyişməsinin yolverilməzliyi mövqeyində qətidir. Üstəlik, Koçaryan dəhlizin tranzit əhəmiyyətinin şişirdildiyini vurğulayır və yekunda belə nəticəyə gəlir ki, regional kommunikasiyaların açılmasına dair məsələ yalnız Azərbaycanın və Türkiyənin maraqlarına uyğundur, başqa heç kəsin. Deməli, Paşinyan Bakının və Ankaranın mənafelərinin qoruyucusu qismində təqdim olunur ki, belə bir təqdimatın Ermənistandakı revanşist və şovinist kəsimin başlıca tezisinin olduğu heç kəsə sirr deyil.

Daha sonra Koçaryan ABŞ-ın Cənubi Qafqazda iqtisadi maraqlarının olmadığını iddia edir. Onun sözlərinə görə, Vaşinqton Çini cilovlamaq siyasəti yürüdür, Azərbaycan Prezidenti isə Çində Zəngəzur dəhlizini Pekini Avropa ilə birləşdirən mühüm yol kimi göstərir. Amma Robertin dedikləri paradoks yaradır. Axı Birləşmiş Ştatların Avropa ilə bağlı maraqları var. Ağ Ev çalışır ki, "köhnə qitə"nin ABŞ-dan iqtisadi asılılığı aradan qalxsın. Bunun üçün ən mühüm vəzifə Avropanın Çin bazarı ilə təmasını gücləndirməkdir. Deyəsən, Koçaryan bunu nəzərə almır və elə fon yaradır ki, sanki Azərbaycan və Türkiyə Birləşmiş Ştatları, elə İranın özünü də loru dildə desək, aldatmaqla məşğuldur. Halbuki belə bir durum ola bilməz. Digər tərəfdən, Prezident İlham Əliyev regional kommunikasiyaların açılmasının regiona və dünyaya faydalarına dəfələrlə aydınlıq gətirib, özü də son dərəcə müfəssəl şəkildə. Yəni Koçaryanın, belə demək mümkünsə, başını böyük siyasətə soxması, kənardan çox gülünc görünür. Halbuki məqsədi Paşinyanı gülünc yerinə qoymaqdır. Əlbəttə ki, özünə xas tərbiyəsizliklə: "Nə varsa, hamısını paylayır, demək olar ki, Ermənistan hesabına "Ana Tereza"ya çevrilib (Paşinyanı nəzərdə tutur – red.). Yaxşı ki, qız olaraq doğulmayıb, yoxsa bu, milli biabırçılıq olardı. Baş verənlər böyük geosiyasi oyunun bir hissəsidir və burada Ermənistan, daha dəqiq desəm, baş nazir topun rolundadır".



R.Koçaryan bilavasitə Azərbaycan–Ermənistan sülhünün üzərində də dayanıb və bildirib ki, barış mühitinin pozulmaması üçün nəzarət mexanizmi yoxdur. Göründüyü kimi, o, daxilindəki murdar xisləti ortaya qoyaraq, bir növ, hər şeyi öz arşını ilə ölçür. Koçaryan elə təəssürat yaradır ki, sülhün dayanıqlılığı Azərbaycanın əhval-ruhiyyəsindən asılıdır. O, eyni zamanda, bildirir ki, ABŞ avqustun 8-də imzalanmış sənədlər üzrə zəmanətçi rolunu öz üzərinə götürməyib: "Bu, sadəcə hakimiyyətin növbəti hiyləsidir. Məqsəd xalqı aldatmaqdır. Heç bir sülh yoxdur".

Ermənistanın ikinci prezidenti keçirdiyi mətbuat konfransında ölkənin hərbi büdcəsinin azaldılmasını da tənqid edib. Onun mövcud xüsusda söylədikləri erməni cəmiyyətində qəddar və əndazəsiz Azərbaycan obrazı yaratmağa hesablanıb. Koçaryanın fikrincə, sabit sülh qüvvələr nisbətində balansın təmin edildiyi təqdirdə mümkündür. Yəni, adam yenə çaqqal xislətini işə salır. Çünki onun üçün güclü mütləq zəifi əzməli, namərd davranmalıdır.

Koçaryanın Ermənistanın Azərbaycanla sülh gündəmini gözdən salmağa hesablanmış növbəti fikrini gündəmə gətirərkən, öz aləmində, keçmişlə müqayisə aparıb. O deyib ki, Ermənistanda 44 günlük müharibə zamanı hərbi vəziyyət elan edilmişdi və ölkə savaşda uduzdu. 1992–1993-cü illərdə isə heç bir hərbi vəziyyət və ya səfərbərlik yox idi, ancaq Ermənistan qalibiyyət qazandı. Belə çıxdı ki, qalib tərəf sülhə razılaşmamalıdır. Əslində, bu məxluqun düşüncəsi elə bildirdiyi kimidir. Axı onun rəhbərlik etdiyi hakimiyyət vaxtilə ədalətli sülhdən yayınır, Azərbaycan torpaqlarını işğalda saxlayırdı. Deməli, Koçaryan hazırda güclü tərəf olan ölkəmizin sülhü pozacağını iddia etməklə yenə sırf özünün məkrli baxış bucağını işə salır. İşə salır və Paşinyan üzərinə yüklənərək deyir ki, Azərbaycanla barış sazişi iqtidara gələcək seçkidə istifadə etmək üçün kağız parçasıdır.

Sonda əvvəldə anons etdiyimiz kimi, R.Koçaryanın hansı məqsədlə dilə gəlməsindən söz açaq. Əslində, çox fikirləşməyə ehtiyac yoxdur. Çünki Qarabağ cəlladı məramını özü səsləndirib. Yəni, seçkidən söz düşmüşkən, Robert özünün prosesdə iştirak edəcəyini, baş nazir Paşinyana rəqib olacağını, ən başlıcası isə Ermənistanda inqilab həyata keçirmək niyyətini açıqlayıb.

Ən sonda bunu da bildirək. Görünür, R.Koçaryanın zəncirini əlində saxlayanalar onu açıb buraxmaq qərarına gəliblər. Onların ikinci prezidentin şəxsində Ermənistanı Azərbaycanla sülhdən yayındırmağa hesablanmış qərarının nə kimi nəticələr verəcəyini zaman göstərəcək. Hər bir halda, Koçaryanın indiki kimi, loru dildə desək, barıtı çox eləməsinin ona fayda gətirməyəcəyi bəllidir. Çünki erməni xalqı Moskvanın buyruq qulu olan bu məxluqa nifrətlə yanaşır.

O da aydındır ki, Paşinyan qarşıdakı zaman kəsiyində onu açıqca təhqir edən bu məxluqu tamamilə sıradan çıxarmağa ciddi qol çırmayacaq. Nəzərə alsaq ki, Ermənistanda parlament seçkiləri 2026-cı ilin yayında keçiriləcək, Nikolun müvafiq tədbir görmək üçün kifayət qədər vaxtı var.

***R.ƏVƏZ***
***XQ***

# Qəbələ Zirvəsindən Türk dünyasına tərəqqi çağırışları

## TDT qlobal məkanda söz sahibinə çevrilir

**Oktyabrın 7-də Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü yeni iqtisadi əməkdaşlıq nizamının anonsu oldu. Geosiyasi çağırışlar və regional təhlükəsizlik məsələləri ilə yanaşı, iqtisadi gündəm görüşün əsas mövzularından birinə çevrildi. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin səsləndirdiyi iqtisadi çağırışlar qardaş ölkələr tərəfindən dəstək görür və TDT məkanında birlikdə həyata keçirilən praktiki layihələr bu həmrəyliyin ən mühüm göstəricilərindən hesab olunur.**




Məlumdur ki, dövrümüzdə qlobal nəqliyyat arteriyalarının önəmi hər keçən gün daha da artır. Bu amili nəzərə alaraq Azərbaycanın mühüm nəqliyyat arteriyaları aspektində hab funksiyası daşıyıcısı olması qlobal iqtisadi gündəlikdə ölkəmizin nüfuzunu daha da artırır. Həmçinin Türk Dövlətləri Təşkilatı daxilində də qardaş ölkələrlə iqtisadi əməkdaşlığın genişlənməsi ölkəmizin sahib olduğu iqtisadi dividendlərin üstünlüyüdür.

TDT-nin Qəbələ Zirvəsində qeyd olunduğu kimi, 2022-ci ildən etibarən Orta Dəhlizlə həyata keçirilən yükdaşımaların həcmi təxminən 90 faiz artıb. Bu, Azərbaycanın artan tranzit potensialını nümayiş etdirir. Dəhliz boyunca yük axınının sürətlənməsi nəticəsində tranzit müddətləri azalıb, bu isə beynəlxalq ticarətin səmərəliliyini daha da artırıb. Hazırda Xəzərin ən iri ticarət donanmasına sahib olan Azərbaycan yaxın illərdə illik ötürmə gücü 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu xətti, 9 beynəlxalq hava limanı və regionun aparıcı yükdaşıma aviaşirkəti ilə qlobal nəqliyyat sistemində öz mövqeyini möhkəmləndirib. Bu amillər Azərbaycanın strateji coğrafi üstünlüyünü reallığa çevirərək onu beynəlxalq nəqliyyat qovşaqlarından birinə çevirir.

Qeyd edək ki, 2024-cü ildə Orta Dəhliz vasitəsilə daşınan yüklərin həcmi 62 faiz artaraq 4,5 milyon tona çatdı. Bu göstərici marşrutun potensialına dair region aktorlarının hesablamalarını gücləndirir. 2025-ci il üçün həcmin 5,2 milyon tona yaxınlaşması gözlənilir. Proqnozlara görə, bunun təxminən 4,2 milyon tonu marşruta daxil ölkələrin ərazisindən keçəcək, daşımaların strukturunda isə həm quru yük, həm də enerji məhsulları mühüm pay təşkil edəcək.

Qəbələ Zirvəsində, eləcə də, Vaşinqton Zirvəsinin önəmli qərarlarından biri - Zəngəzur dəhlizinin (TRIPP) gündəmə gətirilməsi olduqca əlamətdardır. Bu dəhliz Orta Dəhliz və Şimal–Cənub marşrutları arasında yeni nəqliyyat arteriyası formalaşdırır və regionun iqtisadi dinamikasına əlavə güc qazandırır. Zəngəzur vasitəsilə yaranacaq yeni marşrutun fəaliyyəti həm regional inteqrasiyanı dərinləşdirəcək, həm də Avrasiya məkanında ticarət əlaqələrinin coğrafiyasını genişləndirəcək. Həmçinin, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev də çıxışında qeyd etdi ki, Zəngəzur dəhlizinin təmin edilməsi tarixi əhəmiyyətə malikdir və bu, Türk dünyasını geosiyasi səviyyədə gücləndirəcək.

Həmçinin Qəbələ Zirvəsində adı çəkilən Çin–Qırğızıstan–Özbəkistan dəmir yolu (CKU) Orta Asiyada və daha geniş Avrasiya məkanında ən iddialı infrastruktur layihələrindən biridir. Texniki cəhətdən sərt dağlıq relyefləri tunel və körpülərlə keçən təkxətli magistral olmaqla mühəndislik baxımından çətinliklər daşıyır. İqtisadi və geosiyasi baxımdan isə layihə Orta Asiyanın dənizə çıxışı olmayan ölkələri üçün əhəmiyyətli, Çinin Avropa ilə əlaqəsini şaxələndirən və Orta Dəhliz kimi multimodal marşrutları gücləndirən yeni ticarət arteriyasıdır.

Layihənin uğurla tamamlanması regionun tranzit potensialını artıracaq, Qırğızıstan və Özbəkistanın iqtisadiyyatını canlandıracaq, Azərbaycan daxil olmaqla Türk Dövlətləri Təşkilatı üzvlərinə yeni bazar və tranzit imkanları yaradacaq.

TDT məkanında qarşılıqlı investisiyaların həcmi artıq gözlə görünən nəticələr verir. Bu günə qədər qardaş ölkələrin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox vəsait qoyulub. Bu vəsaitin əsas hissəsi Türkiyə iqtisadiyyatına yönəlsə də, Azərbaycan regionda aktiv investisiya siyasəti həyata keçirir. Qardaş ölkələr arasında yaradılan birgə sərmayə fondları qarşılıqlı layihələrin maliyyələşdirilməsi və icrası üçün yeni mexanizm rolunu oynayacaq. Bu fondlar vasitəsilə sənaye, logistika, energetika və infrastruktur sahələrində reallaşacaq investisiyalar TDT ölkələrinin iqtisadi profillərini tamamlayacaq.

*Nurlan ABDALOV*
*XQ*

### Ekspert rəyi

**Vüsalə CƏFƏROVA,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Türk Dünyası Araşdırmaları Mərkəzinin rəhbəri**



Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü "Regional sülh və təhlükəsizlik" mövzusu altında Türk dünyasında inteqrasiyanın dərinləşməsi, kollektiv təhlükəsizlik və iqtisadi əməkdaşlığın gücləndirilməsi baxımından yeni mərhələnin əsasını qoydu.

Azərbaycanın daxili sabitliyi, strateji-coğrafi mövqeyi, logistika və nəqliyyat imkanları, artan hərbi-texniki potensialı TDT-ni qlobal arenada daha təsirli aktora çevirir. Prezident İlham Əliyev Zəngəzur dəhlizini həm Orta Dəhliz, həm də Şimal–Cənub dəhlizləri çərçivəsində yeni strateji marşrut kimi qiymətləndirib. Bu dəhliz "Türk qapısı" rolunu oynayaraq Avrasiya boyunca inteqrasiya olunmuş iqtisadi və logistik məkanın əsasını qoyacaq.

Azərbaycan hazırda 14 ölkəyə təbii qaz ixrac edir və boru kəmərlərinin coğrafi əhatəsinə görə dünya lideridir. Bununla yanaşı, ölkə 2030-cu ilə qədər enerji istehsalının 40 faizini bərpaolunan mənbələrdən təmin etməyi hədəfləyir. Bu kontekstdə Azərbaycan Gürcüstan, Rumıniya və Macarıstanla birlikdə Yaşıl Enerji Dəhlizi layihəsini həyata keçirir. Qara dənizin dibindən keçən hissəsi 1100 km uzunluğunda olan bu kabel sisteminə Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyadakı türk dövlətlərinin də qoşulması istiqamətində Bakı əməli təşəbbüslər irəli sürür. Azərbaycan 3 milyard ABŞ dolları dəyərində 10 bərpaolunan enerji layihəsinə sərmayə qoyur və 2 GW yeni güc yaratmağı planlaşdırır.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zirvədə çıxışında "TDT Plus" formatının qəbulunu Türk dünyasının beynəlxalq əlaqələrinin yeni mərhələsi kimi dəyərləndirib. O qeyd edib ki, bu format vasitəsilə TDT digər beynəlxalq təşkilatlarla sinerji yaratmaq və qlobal sistemdə vahid mövqedən çıxış etmək imkanına malik olacaq.

Türk dünyasının müdafiə sahəsində əməkdaşlığını dərinləşdirmək və beynəlxalq hüququn böhranlı şəraitində vahid mövqeyin sərgilənməsi zərurətə çevrilib. Bu səbəbdən, bütün sahələrdə, o cümlədən müdafiə sənayesi və texnoloji əməkdaşlıqda inteqrasiyaya dəstək vermək Zirvənin sonunda imzalanan bəyannamədə əksini tapıb. Eyni zamanda, Azərbaycan–Özbəkistan, Azərbaycan-Qazaxıstan və Azərbaycan–Qırğızıstan birgə sərmayə fondları yaradılıb və yeni layihələrin maliyyələşdirilməsi üzərində işlər gedir.

Qəbələ Zirvəsi göstərdi ki, Azərbaycan "Bir millət – çox dövlət" fəlsəfəsi əsasında Türk dünyasında siyasi, iqtisadi, enerji və təhlükəsizlik inteqrasiyasının hərəkətverici qüvvəsinə çevrilib. TDT-nin Qəbələ Bəyannaməsi Türk dövlətlərini vahid güc mərkəzinə çevirmək istiqamətində növbəti strateji addımdır. Zəngəzur dəhlizi, Yaşıl Enerji Dəhlizi və "TDT Plus" formatı kimi təşəbbüslər Türk dünyasının qlobal aktor statusunu gücləndirəcək və Azərbaycanın liderlik rolunu regionun gələcək onillikləri üçün möhkəmləndirəcək.

# "Odlar yurdu" qardaş ölkələrin etibarlı enerji tərəfdaşıdır

## Şaxələndirilmiş boru kəmərlərinin strateji əhəmiyyəti artır

**Azərbaycan tarixən zəngin neft-qaz diyarı kimi tanınıb. Elə dünya üzrə neftin sənaye üsulu ilə çıxarılmasına da ilk dəfə məhz Azərbaycanda başlanılıb. 1848-ci ildə Bibiheybətdə sənaye üsulu ilə qazılmış ilk neft quyusunun fontan vurması bütün dünyaya səs salıb. Həmin hadisədən ötən 177 ildə bu qədim diyarın "qara qızıl"ı müxtəlif yollarla dünya bazarlarına ixrac edilib.**

Müstəqillik illərində isə özünün yeraltı sərvətlərinin əsl sahibinə çevrilmiş Azərbaycan həm də şaxələndirilmiş neft və qaz kəmərləri sisteminin yaradılmasına nail olub. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasının əsas istiqamətlərindən biri də karbohidrogen ehtiyatlarının şaxələndirilmiş boru kəmərləri sistemləri ilə dünya bazarlarına çıxarılması ilə bağlı idi.

Məhz dövlətimizin siyasi rəhbərliyinin təşəbbüsü və mətin iradəsi sayəsində son 25 il ərzində Xəzər sahillərindən Avropa qitəsinədək minlərlə kilometr uzunluğunda neft və qaz kəmərləri çəkilib. İndi həmin infrastruktur ölkəmizin ixrac potensialını artırmaqla yanaşı, "köhnə qitə"nin enerji xəritəsinin zənginləşdirilməsinə də mühüm töhfələr verir. Neft və təbii qaz ehtiyatlarının dünya bazarlarına müxtəlif marşrutlarla çıxarılması həm Azərbaycanın enerji təhlükəsizliyini təmin edir, həm də ölkəmizi Avropa üçün etibarlı enerji tərəfdaşına çevirir.

Eyni zamanda, şaxələndirilmiş nəql marşrutlarına malik olması Azərbaycan dövlətinin müstəqil enerji siyasətinin məntiqi nəticəsi, ölkəmizin böyük üstünlüyüdür. 31 il əvvəl Bakıda dünyanın transmilli neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandıqdan sonra ulu öndər Heydər Əliyevin qətiyyəti sayəsində Azərbaycan özünün neft-qaz sərvətlərinin dünya bazarlarına çıxarılması istiqamətində müstəqil qərarların qəbul edilməsinə nail olub. Öncə "Əsrin müqaviləsi"nin ilkin neft layihəsi çərçivəsində "Çıraq" platformasından hasil edilən xam neftin Şimal istiqaməti ilə beynəlxalq bazarlara ixracı üçün Bakı – Novorossiysk kəməri əsaslı yenidənqurmadan sonra istifadəyə verilib.

"Qara qızıl"ın Qərb istiqaməti ilə ixracını təmin etmək məqsədilə inşa olunmuş Bakı–Supsa kəməri isə 1999-cu ilin aprel ayında istismara buraxılıb. Bununla belə, getdikcə artmaqda olan neft həcmlərini dünya bazarına çıxarmaq üçün ölkəmizin daha geniş imkanlara malik ixrac infrastrukturuna ehtiyacı var idi. Bu layihənin də əsas təşəbbüskarı və memarı Ulu öndər olub. Məhz onun qətiyyəti və siyasi iradəsi nəticəsində "Üç dənizin əfsanəsi" kimi tanınan Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəməri (BTC) layihəsi həyata vəsiqə alıb.

Azərbaycanın əsas neft nəqli marşrutu olan Bakı – Tbilisi – Ceyhan boru kəməri 2006-cı ildə istifadəyə verilib.



Ümumi uzunluğu 1768 kilometr olan bu kəmər vasitəsilə Azərbaycan nefti Gürcüstan və Türkiyə ərazisindən keçərək Aralıq dənizindəki Ceyhan limanına çatdırılır. BTC kəmərinin illik ötürmə qabiliyyəti təqribən 50 milyon ton (gündəlik 1,2 milyon barel) təşkil edir və bu marşrut Azərbaycanın əsas neft ixrac kanalıdır. BTC boru kəməri istismara veriləndən 2025-ci ilin 2-ci rübünün sonunadək, ümumilikdə, 605 milyon ton (4,6 milyard bareldən çox) xam neft nəql edib.

"Şahdəniz" yatağının istismara verilməsi isə Azərbaycanı həm də dünyanın potensial qaz ixrac edən ölkəsinə çevirib. Ötən müddətdə ölkəmiz qaz ixracı məqsədilə "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində strateji infrastruktur qurmağa nail olub. XXI əsrin nəhəng qaz ixrac marşrutlarından sayılan bu dəhliz Cənubi Qafqaz Boru Kəməri, Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəmərindən (TAP) ibarətdir. Cənubi Qafqaz Boru Kəməri 2007-ci ildən fəaliyyət göstərir və Azərbaycanın "Şahdəniz" yatağından hasil olunan qazı Gürcüstan və Türkiyəyə çatdırır. Bu kəmərin ötürmə qabiliyyəti 24 milyard kubmetrədək genişləndirilib.

TANAP Azərbaycanın qazını Türkiyə ərazisindən keçirməklə Avropaya çatdıran əsas ixrac arteriyasıdır. 2018-ci ildə istismara verilmiş bu kəmərin illik ötürmə gücü hazırda 16 milyard kubmetr təşkil edir, gələcəkdə isə bu rəqəmin 31 milyard kubmetrədək artırılması planlaşdırılır. TANAP-ın davamı olan TAP isə qazı Yunanıstan, Albaniya və Adriatik dənizi vasitəsilə İtaliyaya daşıyır. TAP-ın ötürmə gücü illik 10 milyard kubmetr təşkil edir. Artıq kəmərin illik qaz nəqlinin 20 milyard kubmetrə çatdırılması istiqamətində tədbirlərə başlanılıb.

Beləliklə də Azərbaycanın neft və qaz ehtiyatlarının sərbəst şəkildə dünya bazarına çıxarılması üçün yürütdüyü müstəqil enerji siyasəti özünü tam doğruldub. Yeri gəlmişkən, hazırda dünyada neft və qaz hasil edən ölkələrin heç də hamısı müstəqil enerji siyasəti həyata keçirmək imkanına malik deyil. Təsadüfi deyil ki, oktyabrın 7-də Qəbələ şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə bu mühüm məqama toxunan Prezident İlham Əliyev deyib: "Şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunu beynəlxalq bazarlara birləşdirilməsində strateji rol oynayırıq. Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik. Coğrafi əhatəsinə görə boru kəmərləri ilə təbii qaz ixrac edən ölkələr sırasında Azərbaycan birinci yerdədir".

Bir məqamı da qeyd edək ki, Azərbaycan Türk Dövlətləri Təşkilatına üzv ölkələrdən olan Türkiyə ilə uzun illərdir ki, karbohidrogen ehtiyatlarının ixracı sahəsində səmərəli əməkdaşlıq edir. Qardaş ölkə ilə enerji əməkdaşlığının, strateji tərəfdaşlığın təməli isə ümummilli lider Heydər Əliyev tərəfindən ötən əsrin sonlarında qoyulub. Qeyd etdiyimiz kimi, Azərbaycan neftinin dünya bazarına çıxarılması üçün nəzərdə tutulmuş əsas ixrac boru kəmərinin Türkiyə ərazisindən çəkilməsi ideyası məhz Ulu öndərə məxsusdur. Artıq 19 ildən çoxdur ki, Bakı – Tbilisi – Ceyhan boru kəməri xalqlarımızın ümumi rifahına xidmət edir. Azərbaycan qazını Avropa bazarına çıxaran Cənub Qaz Dəhlizinin mühüm seqmenti sayılan Trans-Anadolu Boru Kəməri də Türkiyə ərazisində 1850 kilometr məsafə qət edərək "mavi yanacağ"ı Trans-Adriatik Boru Kəmərinə ötürür.

Bununla yanaşı, BTC ölkəmizə Türk Dövlətləri Təşkilatının üzvü olan Qazaxıstan və Türkmənistanla da enerji sahəsində əməkdaşlığa geniş imkan yaradır. Artıq uzun illərdir ki, Xəzər qonşularımız müəyyən qədər neft həcmlərini BTC vasitəsilə nəql etmək üçün tankerlərlə Azərbaycana çatdırırlar. Gələcəkdə isə Trans-Xəzər qaz kəməri layihəsinin reallaşacağı təqdirdə Türkmənistan qazının da ölkəmizin ərazisindən nəqlinə başlanılacaq. Eyni zamanda, yaxın perspektivdə "Dostluq" yatağının müştərək işlənməsi ilə bağlı razılaşma da mövcuddur. Bütün bunlar isə yaxın illərdə iki ölkə arasında enerji əməkdaşlığının genişlənməsinə səbəb olacaq.

Göründüyü kimi, hazırda Azərbaycanın 3 əsas neft və 3 əsas qaz ixrac boru kəməri mövcuddur. Bu kəmərlərin ümumi uzunluğu isə 6 min kilometrdən çoxdur. Şaxələndirilmiş boru kəmərləri sistemi ölkəmizə iqtisadi mənfəət gətirməklə yanaşı, onun strateji üstünlüyünü də təmin edir. Bu infrastruktur sayəsində Azərbaycan həm regional enerji təhlükəsizliyinə töhfə verir, həm də özünü etibarlı tərəfdaş kimi təsdiqləyərək dünyanın enerji bazarında mühüm mövqeyini qoruyur.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Azərbaycan – Oman Birbaşa İnvestisiya Fondu yaradılıb

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Oman Sultanlığına səfəri çərçivəsində bu ölkənin iqtisadiyyat naziri Said bin Məhəmməd bin Əhməd Al Saqri ilə görüşüb. Söhbət zamanı iki ölkə arasında 30 ildən artıq diplomatik münasibətlərə, İslam həmrəyliyinə və qarşılıqlı etimada əsaslanan tərəfdaşlığın mövcudluğu vurğulanıb. Görüşdə iqtisadi əlaqələrin möhkəmləndirilməsi, müqavilə-hüquq bazasının genişləndirilməsi, Azərbaycan – Oman Birgə Biznes Şurası və İnvestisiya Əməkdaşlığı üzrə İşçi Qrupunun yaradılmasının önəmi qeyd olunub.**




Tərəflər ticarət və investisiya əlaqələrinin geniş potensialını, bu sahədə əməkdaşlığın dərinləşdirilməsinin əhəmiyyətini diqqətə çatdırıblar. Azərbaycan tərəfi investorlar üçün yaradılmış imkanlar, o cümlədən Ələt Azad İqtisadi Zonası, sənaye parkları və azad edilmiş ərazilərdə aparılan bərpa işləri barədə məlumat verib. Bildirilib ki, Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji zonaları" elan olunub, burada infrastrukturun və logistika imkanlarının inkişafı regionun iqtisadi dinamizmini artırır.

Vurğulanıb ki, Azərbaycanın Şərq – Qərb və Şimal – Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi ölkəmizi regional ticarət və logistika mərkəzinə çevirib. Bu da Azərbaycan – Oman əməkdaşlığının inkişafı üçün əlavə imkanlar yaradır. Bununla yanaşı, görüşdə enerji, turizm, KOB və tranzit sahəsində birgə fəaliyyət imkanları da müzakirə olunub.

Mikayıl Cabbarov Oman maliyyə naziri, Oman İnvestisiya Qurumunun sədri Sultan bin Salem Al Habsi və qurumun prezidenti Abdulsalam bin Məhəmməd Al Murşidi ilə görüşüb. Görüş çərçivəsində Oman İnvestisiya Qurumu və Azərbaycan İnvestisiya Holdinqi arasında Azərbaycan – Oman Birbaşa İnvestisiya Fondunun yaradılması ilə bağlı səhmdarlar müqaviləsi imzalanıb.

Qeyd edək ki, müqavilə ikitərəfli investisiya əməkdaşlığının gücləndirilməsinə, ərzaq sənayesi, səhiyyə, bərpaolunan enerji, istehlak malları və logistika kimi müxtəlif sahələrdə Azərbaycan, Oman, Mərkəzi Asiya və digər ölkələrdə strateji investisiya layihələrini həyata keçirməklə ölkələrimizin iqtisadi inkişafına töhfə verəcək. Fondun ilkin kapitalı 200 milyon ABŞ dolları məbləğində müəyyən edilib. Bu məbləğin 100 milyon dolları Azərbaycan İnvestisiya Holdinqi, 100 milyon dolları isə Oman İnvestisiya Qurumu tərəfindən təmin ediləcək.

*XQ*

*Yeniliyin ünvanı*

# Paytaxtda "Məktəbli avtobusları" layihəsinə start verilib

## *Xidmət məmnunluq doğurur, qiymət isə birmənalı qarşılanmır*

**Oktyabrın 1-dən etibarən ölkəmizdə məktəbli avtobusları fəaliyyətə başlayıb. 1250-dən çox şagirdi əhatə edən pilot layihədə əsas məqsəd valideynlərin övladlarını məktəbə aparıb-gətirməsi ilə bağlı yaranan nəqliyyat sıxlığını aradan qaldırmaqdır. Bu məqsədlə "2 School" startap şirkəti vasitəsilə layihə çərçivəsində 100-dən çox avtobus fəaliyyət göstərir. Bu xidmətdən istifadəyə görə aylıq abunə haqqı məsafəyə əsasən müəyyən olunur. Bəs görəsən, qiymətlər bütün valideynlər üçün münasibdirmi?**



Qeyd edək ki, bir müddət əvvəl Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" təsdiq olunub. Dövlət Proqramında Bakının nəqliyyat sıxlığına təsir edən halların aradan qaldırılması ilə yanaşı, ümumi təhsil və məktəbəqədər təhsil müəssisələrində təhsil alanların rahat və təhlükəsiz daşınması məqsədilə məktəb avtobuslarından istifadənin təşkili də nəzərdə tutulub. Problemin həlli, ehtiyacların müəyyən olunması Elm və Təhsil Nazirliyi ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə tapşırılıb.

Pilot layihə hələlik 8 dövlət və 3 özəl məktəbi əhatə edəcək. Valideynlər xüsusi onlayn platformalar vasitəsilə övladlarının istifadə etdiyi məktəbli avtobusunun marşrut xəttini asanlıqla izləyə biləcəklər. Layihənin tətbiq olunacağı məktəblər sırasına Bakı şəhərində yerləşən İlyas Əfəndiyev adına Elitar Gimnaziya, 6 nömrəli məktəb-lisey, general-leytenant Kərim Kərimov adına 8 nömrəli tam orta məktəb, A.Hüseynzadə adına 20 nömrəli məktəb-lisey, Tahir Həsənov adına 23 nömrəli tam orta məktəb, Xətai rayonundakı 27 nömrəli tam orta məktəb, 132-134 nömrəli Təhsil Kompleksi və 189-190 nömrəli tam orta məktəb daxildir.

**Layihənin həmtəsisçisi Orxan Abbasov bildirdi ki, artıq 1 200-dən çox şagird yeni xidmətə qoşulub:**

– Məqsədimiz şəhərin mərkəzində və ətraf ərazilərdə uşaqların məktəbə çatdırılması problemini həll etməkdir. Bu problem uzun müddətdir var. Hazırda bu layihəni Elm və Təhsil Nazirliyinin dəstəyi ilə pilot mərhələ olaraq hələlik 11 seçilmiş məktəbdə gerçəkləşdiririk. Lakin gələn ilin sentyabr ayından etibarən daha genişmiqyaslı olmasını planlaşdırırıq.

**Orxan Abbasov abunə haqqı ilə bağlı dedi ki, aylıq ödəniş 100 manatdan başlayaraq təyin olunub:**

– Qiymət məsafədən asılı olaraq dəyişir. Aylıq ödəniş haqqı bazarda olan digər avtobus şirkətlərinin təklif etdiyi qiymətlərdən daha münasibdir. Çalışdıq ki, qiymətləri hər bir valideyn üçün mümkün qədər əlçatan edək. Valideynlərlə keçən ilin mart ayından etibarən bu mövzuda müzakirələr aparmışıq. Eyni məktəbdə bir neçə övladı təhsil alan valideynlərə, qazi və şəhid ailələrinə xüsusi güzəştlər tətbiq olunur. Qarşıdakı aylarda müəyyən endirimli kampaniyalar da nəzərdə tutulub. Xidmətimizlə bağlı hər hansı məlumatı öyrənmək üçün çağrı mərkəzimiz (*2220) fəaliyyət göstərir.

Orxan Abbasov əlavə olaraq qeyd etdi ki, bizim üçün ilk növbədə əsas prioritet uşaqların təhlükəsizliyinin təmin olunmasıdır. Bunun üçün sürücülərimizi işə götürərkən, ilk növbədə, onların iş təcrübəsinə baxılır. Daha sonra isə sağlamlıq məlumatları, qan nümunələri və s. yoxlanılır. Nəqliyyat vasitələrimiz hər həftə texniki baxışdan keçirilir. Eyni zamanda avtomobillərin hər birində təhlükəsizlik kəmərləri var. Sistemdə CCTV/GPS izləmə mexanizmləri tətbiq olunub ki, bu vasitəsilə valideynlər avtobusun yerini izləyə və uşağın yeri barədə bildirişlər ala bilərlər.

**Nəqliyyat eksperti Aslan Əsədovun** sözlərinə görə, paytaxtın mərkəzi hissələrində yerləşən məktəblərdə valideynlərin, sürücülərin, onların yaxınlarının nəqliyyat vasitəsilə məktəbə gəlməsi ətrafda tıxaca, sıxlığın yaranmasına səbəb olur. Bunun qarşısını almaq üçün də müvafiq proqram təsdiq edildi. Bu yöndə məktəblilərin ümumi avtobuslarla gedib-gəlməsi olduqca müsbət haldır:

– Yeni tədris ili başlayandan Bakıda səhər saatlarında və dərs bitdikdən sonra yollarda sıxlıq, tıxac müşahidə olunur. Bəzən insanlar dəqiqələrlə tıxacda qalmalı olurlar. Xüsusən də səhər saatlarında yollarda vəziyyət çətinləşir. Bunun əsas səbəblərindən biri valideynlərin övladlarını fərdi avtomobillərlə məktəbə aparıb-gətirməsidir. Məktəb avtobuslarının tətbiqi bu yükü azaldacaq, yollar nisbətən daha az yüklənəcək. Nəticədə də nəqliyyat axını daha səmərəli təşkil olunacaq. Bu sistem sürücülərin yol hərəkəti zamanı məktəblərin qarşısında nizamsız dayanma hallarının da qarşısını alacaq. Xüsusən də dərs saatlarında məktəblərin yerləşdiyi ərazilərdə, küçələrdə çox sıxlıq olur. Məktəb avtobuslarının fəaliyyətə başlaması valideynlərin işini xeyli asanlaşdıracaq. Valideyn həm vaxtına, həm də büdcəsinə qənaət edəcək. Mövcud vəziyyətdə bəzi ailələr övladlarını taksi ilə məktəbə aparmalı olur ki, bu da əlavə maliyyə yükü yaradır.

Prosesi yaxından izləmək üçün yolumuzu Səbail rayonunda yerləşən 6 nömrəli məktəbdən saldıq. Öyrəndik ki, daşınmanı uşaqların giriş-çıxış saatlarından asılı olaraq 30-dan çox mikroavtobus həyata keçirir və proses xüsusi koordinatorlar vasitəsilə tənzimlənir. Valideynlərin əksəriyyəti bu təşəbbüsü dəstəkləsələr də, narazılıq bildirənlər də oldu. Onlardan bəziləri isə bu xidmətdən istifadə etmədiklərini, övladlarını məktəbə şəxsi avtomobilləri ilə aparıb-gətirdiklərini söylədilər.

**Valideynlərdən Gülnar Abbasova bu təşəbbüsün uşaqların təhlükəsizliyi baxımından da əlverişli olduğunu bildirdi, lakin aylıq abunə haqqının bahalığından şikayətləndi:**

– Övladımı məktəbə aparıb-gətirmək üçün nəqliyyat xidmətinə ayda 80-100 manat civarında pul xərcləyirəm. Amma yeni məktəb avtobuslarında qiymətlər 200 manatdan yüksəkdir, bu isə ikiqat bahadır, ailə büdcəmiz buna yetmir.

**Təhminə Eyvazova isə layihənin uşaqların dərsə davamiyyəti baxımından əhəmiyyətli olduğunu söylədi:**

– Bu addım uşaqlarımızın məktəbə vaxtında çatması və biz valideynlərin iş yükünün, məsuliyyətinin azaldılması baxımından təqdirəlayiqdir.

**Adilə İsayeva qiymətlə bağlı narazılıq etdi:**

– 5-10 kilometrlik məsafəyə bir ay aparıb-gətirmək üçün 180 manat ödəniş tələb edilir. Bu da taksi xidmətlərinin qiymətinə bərabərdir, aylıq ailə büdcəmizi aşır. Düşünürəm ki, aylıq abunə haqqında müəyyən endirim edilsə daha yaxşı olar.

**Səkinə Cəfərova isə bildirdi ki, məktəbli avtobuslarının fəaliyyəti uşaqların sosiallaşması baxımından da çox əhəmiyyətlidir:**

– Uşaqlar məktəbli avtobusunda yoldaşları ilə birlikdə məktəbə gedib qayıdacaqlar. Yolboyu dərslərlə bağlı intellektual söhbət edib, bir-biriləri ilə qarşılıqlı fikir mübadiləsi aparacaqlar. Bu da onların sosiallaşmasına daha çox kömək edəcək.

Dünya təcrübəsinə nəzər saldıqda görürük ki, məktəb avtobusları müxtəlif formalarda fəaliyyət göstərir. Bəzi ölkələrdə bu xidmətlər dövlət tərəfindən təmin olunursa, bəzilərində özəl məktəblər və şirkətlər məsuliyyət daşıyır. ABŞ-da bu xidmət bütün şagirdlər üçün pulsuzdur və dövlət büdcəsindən maliyyələşir. Türkiyədə xidmət özəl şirkətlər tərəfindən idarə olunur, amma qiymətlər dövlət tərəfindən tənzimlənir. Almaniyada isə məktəbli daşımalarını regional bələdiyyələr maliyyələşdirir, valideynlər üçün əlavə yük minimal olur.

Bu nümunələr göstərir ki, uzunmüddətli perspektivdə ölkəmizdə də qiymətlər tənzimlənərsə, aztəminatlı ailələrə subsidiyalar və güzəştlər tətbiq edilərsə, layihə davamlı şəkildə genişlənər, maddi cəhətdən hər kəs üçün əlçatan ola və kütləviləşə bilər.

***Elenora HƏSƏNOVA***
***XQ***

# Şəhid ailələrinə və qazilərə daha 100 mənzil verildi

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 100 mənzil verilib. Mənzillər Bakının Hövsan qəsəbəsindəki yeni yaşayış kompleksindən təqdim edilib.**



4 saylı DOST Mərkəzində mənzillərin sənədlərinin təqdim edilməsi tədbirində əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli Prezident İlham Əliyevin şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə xüsusi qayğısı nəticəsində həmin kateqoriyalara aid vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atıldığını vurğulayıb.

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, V.Nəsirli bildirib ki, möhtəşəm tarixi Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib.

Qeyd edilib ki, postmüharibə dövründə həmin kateqoriyalardan olan vətəndaşlara 6900, ümumilikdə, ötən dövrdə 16 minədək mənzil və fərdi ev təqdim olunub. Eyni zamanda, şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial təminatının gücləndirilməsi, sosial dəstək proqramları, reabilitasiya xidmətləri ilə əhatə olunmaları, məşğulluqlarının təminatı və s. istiqamətlərdə aparılan işlərdən bəhs olunub.

Şəhid ailələrinin üzvləri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər diqqət və qayğı ilə əhatə olunduqlarına, yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

***Mustafa KAMAL***
***XQ***

*XQ-nin müzakirəsi*

**"Xalq qəzeti"nin 10 aprel 2025-ci il tarixli nömrəsində Hidayət müəllimin "Əziz Əliyevin heykəli hardadır?" adlı məqaləsi dərc olunub. Həmin yazı mühüm bir sualı gündəmə gətirdi. Bu sual təkcə bir abidənin taleyi ilə deyil, xalqımızın öz tarixi yaddaşına qədirbilən münasibəti ilə bağlıdır.**

# Yaddaşlarda heykəlləşmişlər



### Tarixə və ziyalılara borcumuz

Əziz Əbdülkərim oğlu Əliyev Azərbaycan səhiyyə sisteminin formalaşmasında, tibb elminin inkişafında və ümumilikdə milli ziyalı təbəqəsinin yetişməsində misilsiz xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. O, həkim kimi insan sağlamlığını qorumağı, rəhbər kimi isə cəmiyyətin sağlam düşüncəsini formalaşdırmağı öz həyat missiyasına çevirmişdi.

Onun təşəbbüsü ilə yüzlərlə həkim və alim yetişdi, səhiyyə sahəsində elmi-təşkilati baza yaradıldı. Azərbaycan Tibb Universiteti və digər ali məktəblərdə onun adı bu gün də böyük ehtiramla çəkilir.

### Dağıstanda yazılan müdriklik tarixi

Əziz Əliyevin fəaliyyəti təkcə Azərbaycanda deyil, Dağıstanda da dərin iz buraxmışdır. İkinci Dünya müharibəsinin ağır illərində o, Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi kimi arxa cəbhədə böyük fədakarlıq göstərdi.

Əhalinin təxliyəsi, ərzaq təminatı, səhiyyə xidmətlərinin təşkili kimi həyati vacib məsələlərin həllində onun təşkilatçılıq bacarığı sayəsində respublika sabitlik və güc mərkəzinə çevrildi. Məhz buna görə bu gün Dağıstanda azərbaycanlı dövlət xadiminin adı dərin hörmət və minnətdarlıqla anılır.

### Heykəl dəyəri yaddaşa çevirir

"Əziz Əliyevin heykəli hardadır?" sualı bizi həm düşünməyə, həm də məsuliyyət hissinə səsləyir. Heykəl ucaldılması sadəcə memarlıq aktı deyil — bu, milli yaddaşın qorunması, bir xalqın öz ziyalısına borcunu ödəməsi deməkdir.

Əgər biz xalq üçün çalışan, millətin gələcəyinə işıq salan ziyalılarımızın adını heykəllərlə yaşatmırıqsa, bu, unutqanlıq deyil, tarixi borcun gecikməsidir.


12 BAXIŞ BUCAĞI 10 aprel 2025-ci il, cümə axşamı Xalq qəzeti

Günün sualı

Əziz Əliyevin heykəli hardadır?

Hidayət,
Əməkdar incəsənət xadimi

Əziz Əliyevin heykəli Bakıda – elm, səhiyyə və təhsil ocaqlarının qarşısında, gənclərin gündəlik yolunun üzərində ucaldılmalıdır. Bu, həm tarixi ədalətin bərpası, həm də gələcək nəsillərə örnək olacaqdır.

### "Elm və humanizm unudulmur"

Böyük şəxsiyyətlərin heykəlləri daşdan yox, yaddaşdan yonulur. Əziz Əliyev xalqın yaddaşında artıq ucaldılmış bir abidədir. Lakin onun fiziki heykəlinin olmaması milli dəyərlərimizə münasibətdə bir boşluq yaradır. Bu məsələni qaldıran Hidayət Orucova və "Xalq qəzeti"nə təşəkkür düşür — çünki belə yazılar tarixlə cəmiyyət arasında körpü rolunu oynayır.

Əziz Əliyevin heykəli ucaldıldıqda bu, təkcə bir alimin xatirəsinə ehtiram olmayacaq, həm də Azərbaycan ziyalısının rəmzi dirçəlişi kimi dəyərləndiriləcək.

***Elçin ŞIXLI,***
***AJB sədri***

# Multikultural dəyərlərimizin ABŞ-da təqdimatı

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Amerika Birləşmiş Ştatlarına səfəri çərçivəsində Yuta Senatının prezidenti Adam Stüart ilə görüşüb.**



Söhbət zamanı Azərbaycan-ABŞ münasibətlərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğu vurğulanıb. Bu il avqust ayının 8-də Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan rəhbərlərinin imzaladıqları Birgə Bəyannamənin sülh prosesində tarixi dönüş nöqtəsi olduğu, eyni zamanda, dinlərarası harmoniya, tolerantlıq və birgəyaşayış ənənələrinin möhkəmlənməsində mühüm rol oynayacağına əminlik ifadə edilib.

Dövlət Komitəsinin sədri Ramin Məmmədov bildirib ki, Azərbaycandakı tolerantlıq mühitinin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu siyasətin əsasında milli-mənəvi dəyərlərin qorunması və müxtəlif dinlərə mənsub insanların birgə, sülh şəraitində yaşamasını təmin etmək məqsədi dayanır. Sədr Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dini tolerantlıq, multikulturalizm və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan cəmiyyət modelinin formalaşdığını qeyd edib.

Komitə sədri daha sonra Azərbaycan–ABŞ əlaqələrinin inkişafına töhfə verəcək qarşılıqlı təmasların əhəmiyyətini vurğulayaraq, Senat prezidentini Azərbaycana səfərə dəvət edib. Dəvəti minnətdarlıqla qəbul edən Adam Stüart əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayaraq, ölkəmizdəki multikultural dəyərləri və dinlərarası harmoniyanı təqdir edib.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov ABŞ-a səfəri çərçivəsində İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin "On iki Həvari Kvorumu"nun üzvü Deyvid Bednar ilə də görüşündə də əməkdaşlıq perspektivləri, beynəlxalq platformalarda Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinin təbliği barədə fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycan Prezidentinin informasiya diplomatiyası

## *Xalqın maraqlarını qlobal məkana çıxaran Lider*



**2020-ci il oktyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsi cəbhə xətti ilə bərabər, informasiya və diplomatiya meydanında da gərginliyin yaşanması ilə diqqət çəkirdi. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək məqsədilə apardığı haqlı mübarizənin izahını beynəlxalq ictimaiyyətə çatdırmaq, illərlə formalaşdırılmış saxta təbliğat stereotiplərini dağıtmaq üçün ardıcıl və məqsədyönlü informasiya strategiyası həyata keçirirdi. Prezident İlham Əliyevin 2020-ci il oktyabrın 9-da "CNN International" kanalının "Connect the World" verilişinə verdiyi geniş müsahibə də bu strategiyanın ən parlaq təzahürlərindən biri idi.**

Dünyanın aparıcı media qurumları sırasında xüsusi yer alan "CNN International"da yayımlanan bu müsahibə Azərbaycanın informasiya diplomatiyasında dönüş nöqtəsi oldu. Prezident İlham Əliyev beynəlxalq auditoriyaya açıq, əsaslandırılmış və faktlara söykənən arqumentlərlə müraciət edərək Ermənistanın işğalçı siyasətini, Azərbaycanın 30 ilə yaxın davam edən səbrini və beynəlxalq hüququn pozulmasına qarşı ədalətli mübarizəsini aydın şəkildə geniş tamaşaçı kütləsinin diqqətinə çatdırdı.

Azərbaycan lideri müsahibədə hər bir suala dəqiqliklə, diplomatik ciddiyyət və məntiqli ardıcıllıqla cavab verdi. Dövlətimizin başçısı Ermənistanın 1990-cı illərin əvvəllərindən etibarən Azərbaycan torpaqlarını işğal etdiyini, bu qəsbin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi ilə rəsmən təsbit olunduğunu bildirdi. Müsahibənin ən mühüm cəhətlərindən biri isə ondan ibarət idi ki, Azərbaycan rəhbərinin arqumentləri beynəlxalq hüquqa, sənədlərə və faktlara əsaslanırdı.

Prezident İlham Əliyev bu yolla həm ölkəmizin mövqeyinin qanuniliyini sübut etdi, həm də Qərb auditoriyasına ünvanlanan dezinformasiyalara qarşı ən təsirli cavabı verdi. Xatırladaq ki, o dövrdə Qərb mediasında Ermənistanın "zərərçəkmiş tərəf" kimi təqdim edilməsinə yönələn cəhdlər fonunda dövlətimizin başçısının dəqiq faktlarla əsaslandırılmış mövqeyi Azərbaycanın informasiya mübarizəsində üstünlüyünü gerçəkləşdirdi.

Müsahibənin aparıcısı Qərb auditoriyasına tanış olan suallar vasitəsilə vəziyyəti "bərabər məsuliyyət" kontekstində təqdim etməyə çalışsa da, Prezident İlham Əliyev diplomatik peşəkarlıqla bu yanaşmanın əsassızlığını üzə çıxardı. Ölkə rəhbəri "Azərbaycan öz torpaqlarında döyüşür" və "Ermənistanın əsgərləri Azərbaycanın ərazisində olmamalıdır", – deyə aydın şəkildə bəyan etdi. Bu sadə, lakin beynəlxalq hüququn mahiyyətinə əsaslanan cümlələr müsahibənin əsas ideoloji mesajına çevrildi. Prezident İlham Əliyevin ritorikası sakit, məntiqi və fakt baxımdan dolğun idi. O, emosiyalardan uzaq, analitik tonla danışaraq, Ermənistanın təxribatçı siyasətini ifşa etdi və beynəlxalq ictimaiyyətə Azərbaycanın ədalətli mövqeyini çatdırdı.

Prezident İlham Əliyev müsahibədə daha çox beynəlxalq hüququn prinsiplərinə istinad edərək BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmamasını, beynəlxalq ictimaiyyətin 30 il ərzində işğala laqeyd münasibətini vurğuladı. Dövlət başçısı, eyni zamanda, Azərbaycanın hərbi əməliyyatları beynəlxalq hüquqa uyğun şəkildə apardığını və əsas məqsədin öz ərazi bütövlüyünü gerçəkləşdirmək olduğunu bildirdi. Prezident İlham Əliyev bu arqumentlə təkcə diplomatik baxımdan deyil, həm də hüquqi cəhətdən Azərbaycanın mövqeyini legitimləşdirdi və beynəlxalq ictimaiyyətin biganəliyi nəticəsində ədalətin bərpası üçün alternativ yol qalmadığını xatırlatdı.

Müsahibədə dövlət başçısı Ermənistanın sentyabrın sonlarında başladığı hərbi təxribatlara, Gəncə, Tərtər, Mingəçevir kimi şəhərlərin raket atəşinə tutulmasına da toxundu. Azərbaycan lideri Ermənistanın dinc əhalini hədəfə almasını beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması kimi qiymətləndirdi. Respublikamızın cavab addımlarının məqsədinin isə yalnız hərbi obyektlərin zərərsizləşdirilməsi olduğunu vurğuladı. Bu yanaşma bir daha Azərbaycanın müharibə şəraitində belə beynəlxalq hüquqa sadiqliyini qoruduğunu, mülki əhalinin təhlükəsizliyi prinsipinə ciddi əməl etdiyini göstərdi.

Siyasi təhlilçilərin qənaətinə görə, Prezident İlham Əliyevin "CNN International"a müsahibəsi Qərb mediasında Azərbaycanın mövqeyinə münasibətin dəyişməsində mühüm rol oynadı. Müsahibədən sonra bir çox beynəlxalq analitiklər və media qurumları tərəfindən respublikamızın haqlı arqumentləri daha geniş işıqlandırılmağa başlandı. Ümumiyyətlə, bu, təkcə bir televiziya çıxışı deyildi, bu, eyni zamanda, Azərbaycan diplomatiyasının qlobal informasiya sisteminə birbaşa təsir nümunəsi idi. Azərbaycan liderinin aydın, emosiyasız, lakin prinsipial çıxışı beynəlxalq informasiya məkanında respublikamızın səsini gücləndirdi.

Analitiklərin fikrincə, dövlətimizin başçısının çıxışı kommunikativ baxımdan da ustalıqla qurulmuşdu. O, həm Qərb auditoriyasının düşündüyü suallara cavab verir, həm də dezinformasiyanın təsirini neytrallaşdırırdı. Məsələn, aparıcının Azərbaycanın Ermənistanın "mülki hədəflərini vurması" barədə sualına cavabında Prezident İlham Əliyev bunun dezinformasiya olduğunu, əslində, işğalçı ölkənin respublikamızın mülki əhalisini atəş altında saxladığını, günahsız soydaşlarımızın öldürüldüyünü qeyd etdi, bu arqumenti faktlar və real nümunələrlə möhkəmləndirdi. Belə bir metod beynəlxalq müstəvidə Prezident İlham Əliyevin informasiya diplomatiyasının əsas xüsusiyyəti, yəni erməni təbliğat maşınının fakt və dəlillərlə ifşası kimi dəyərləndirildi.

Yeri gəlmişkən, "CNN International" kimi nüfuzlu kanalda çıxış Prezident İlham Əliyevin beynəlxalq səviyyədə nüfuzunu daha da möhkəmləndirdi. O, müsahibədə təkcə dövlət başçısı kimi deyil, həm də beynəlxalq hüquq və geosiyasət məsələlərinə dərindən bələd olan bir lider kimi çıxış etdi. Azərbaycan liderinin məntiqi ardıcıllığı, arqumentlərin hüquqi və tarixi əsaslara söykənməsi dünya auditoriyasında Azərbaycanın haqq işinə inam yaratdı. Müsahibə, həmçinin Azərbaycanın informasiya məkanında artıq passiv mövqe tutmadığını, ölkəmizin öz həqiqətlərini beynəlxalq ictimaiyyətə birbaşa təqdim etdiyini göstərdi.

Xatırladaq ki, bu müsahibə Azərbaycanın informasiya diplomatiyasının tərkib hissəsi idi. Prezident İlham Əliyevin müxtəlif beynəlxalq media platformalarında – BBC, Al Jazeera, France 24, TRT, Euronews və digər kanallarda verdiyi müsahibələr kimi, "CNN International"dakı çıxışı da vahid məqsədə – Azərbaycanın milli maraqlarının müdafiəsinə xidmət edirdi. Ölkə rəhbərinin hər dəfə səsləndirdiyi – "Azərbaycan beynəlxalq hüququn yanında dayanır, ədaləti bərpa edir və regionda sülhün bərqərar olması üçün real əsas yaradır" mesaji da bu baxımdan mühüm önəmə malik idi.

***V.BİNYATOĞLU***
***XQ***

# Hadrut zəfəri – Şuşaya açılan qapı

## *Həmin gün Qalib Komandan qələbə sevincini xalqla bölüşmüşdü*

**2020-ci il oktyabr ayının 9-u Azərbaycan tarixində mühüm dönüş nöqtələrindən biri kimi yadda qaldı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev həmin gün xalqa müraciətində Hadrut qəsəbəsinin və ona bitişik bir sıra yaşayış məntəqələrinin – Çaylı, Yuxarı Güzdək, Gorazıllı, Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı və Sur kəndlərinin işğaldan azad olunduğunu elan etdi. Bu xəbər təkcə cəbhə xəttində qazanılmış növbəti uğur deyildi, Hadrutun azadlığı, eyni zamanda, Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı strateji və mənəvi üstünlüyün parlaq təcəssümü idi.**

Belə bir tarixi qələbə ilə Azərbaycan ordusu 30 ildən artıq işğal altında qalmış torpaqlarımızın xilasında növbəti böyük mərhələni keçdi. Hadrut istiqamətində aparılmış əməliyyatlar düşmənin dağlıq ərazilərdə qurduğu dərin müdafiə xəttini yarmaqla müharibənin sonrakı gedişatında ciddi üstünlük qazandırdı. Adıçəkilən yaşayış sahəsinin strateji əhəmiyyəti həm coğrafi mövqeyindən, həm də regiondakı nəqliyyat və logistika xətlərinə nəzarət imkanlarından qaynaqlanırdı. Bu istiqamətdə qazanılmış qələbə Azərbaycanın cənub-qərb cinahında vəziyyəti tam dəyişdirdi, Füzuli və Şuşa istiqamətlərinə gedən yolun açılmasına zəmin yaratdı. 44 günlük Vətən müharibəsinin hər günü Prezident İlham Əliyevin qətiyyətli liderliyinin və strateji düşüncəsinin real təcəssümü idi. Hadrutun azad olunması ilə bağlı xəbərin xalqa çatdırılması isə təkcə hərbi qələbəni deyil, həm də milli ruhun yüksəlişini ifadə edirdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən savaşında planlaşdırılan hərbi əməliyyatlar peşəkarlıq, dəqiqlik və ardıcıllıqla icra edilirdi. Ali Baş Komandan döyüş meydanındakı vəziyyəti şəxsən nəzarətdə saxlayır, siyasi və diplomatik müstəvilərdə paralel təşəbbüslərlə Azərbaycanın mövqeyini möhkəmləndirirdi. Hadrut istiqamətində həyata keçirilən əməliyyatlar da bu planlı və kompleks yanaşmanın məntiqi nəticəsi idi.

Azərbaycan liderinin 9 oktyabr müraciətindəki ifadələr həm ordunun qəhrəmanlığına, həm də xalqın sarsılmaz iradəsinə dərin inamı əks etdirirdi. Ölkə rəhbəri ayrı-ayrı çıxışlarında, müsahibələrində də Azərbaycan Ordusunun öz torpağında döyüşdüyünü, ədalət naminə mübarizə apardığını və bu yolda onu heç kim dayandıra bilməyəcəyini dönə-dönə vurğulayırdı. Uğurlu Hadrut əməliyyatının həmin inamın təsdiqinə çevrilməsi də bunun parlaq ifadəsi idi.

Bir sözlə, Hadrut qəsəbəsinin işğaldan azad olunması Vətən müharibəsinin operativ planında mühüm strateji mərhələ idi. Bu yaşayış sahəsinin coğrafi baxımdan Şuşa istiqamətinə çıxış nöqtəsi dağlıq relyefi və təbii baryerləri ilə mühüm mövqe sayılırdı. Ermənistan tərəfi bu istiqamətdə uzun illər ərzində çoxsaylı istehkamlar qurmuşdu. Lakin Azərbaycan Ordusunun yüksək hazırlığı, taktiki çevikliyi və döyüş ruhu bu istehkamları qısa müddətdə darmadağın etdi.

Hadrut əməliyyatının uğuru həm də göstərdi ki, Azərbaycan Ordusu dağlıq ərazilərdə, mürəkkəb relyef şəraitində döyüş aparmaq qabiliyyətinə tam malikdir. Bu əməliyyatın ardınca Şuşa istiqamətində strateji yüksəkliklərin ələ keçirilməsi artıq qaçılmaz idi. Beləliklə, Hadrutun azad olunması Şuşa qəhrəmanlarına yol açan həlledici addımlardan biri oldu.

Hadrut zəfəri 2020-ci ilin payızında Azərbaycan xalqının vahid amal – torpaqların azadlığı ideyası ətrafında sıx birləşdiyini bir daha nümayiş etdirdi. Cəbhə bölgəsində vuruşan əsgərlərimizin arxasında milyonlarla vətəndaş dayanmışdı. Xalqın dəstəyi, duaları və sarsılmaz inamı ordunun gücünü daha da artırırdı. Prezident İlham Əliyev bu birliyin mühüm rəmzi idi. Dövlət başçısı həm diplomatik müstəvidə Azərbaycanın haqq səsini dünyaya çatdırır, həm də cəbhə bölgəsində qazanılan hər qələbədən xalqı xəbərdar edərək mənəvi güc yaradırdı. Hadrutun azad olunması münasibətilə müraciət də məhz bu ruhun parlaq ifadəsi idi. Hadrutun azadlığı, eyni zamanda, beynəlxalq aləmə mühüm mesaj idi. Belə ki, Azərbaycan 30 il çəkən status-kvonun pozulmaz olmadığını, beynəlxalq hüququn bərpasının real güc və siyasi iradə tələb etdiyini göstərdi. Bu hadisə regionda qüvvələr balansını dəyişdirərək yeni geosiyasi reallıqların formalaşmasına yol açdı.

Dövlət başçısının müharibə dövründə apardığı informasiya və diplomatik mübarizə də bu mərhələdə öz bəhrəsini verdi. Hadrut əməliyyatı Azərbaycanın həm hərbi, həm də informasiya üstünlüyünü nümayiş etdirdi. Düşmənin təbliğat vasitələri uzun müddət Hadrutun guya onların nəzarətində olduğunu bildirsə də, Ali Baş Komandanın qəti mövqeyi və sübutlarla dolu çıxışı bu yalanları ifşa etdi.

Xatırladaq ki, Hadrut təkcə coğrafi məkan deyil, həm də Azərbaycan xalqının yaddaşında mühüm yer tutan tarixi yurd yeridir. 1990-cı illərin əvvəllərində bu bölgənin işğalı nəticəsində minlərlə sakin didərgin düşmüş, mədəni irs yer üzündən silinmişdi. Buna görə də Hadrutun işğaldan azad olunması hərbi qələbə ilə bərabər, həm də tarixi ədalətin bərpası idi. Bu qələbə, eyni zamanda, şəhidlərimizin qanının yerdə qalmadığını sübuta yetirdi. Hadrutun azadlığı zamanı göstərilən qəhrəmanlıq nümunələri isə Azərbaycan gəncliyinin vətənpərvərlik ruhunun ən ali ifadəsi kimi tarixə düşdü.

***V.BAYRAMOV***
***XQ***

# Vətən müharibəsinin xronikası

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

## 9 oktyabr



• Hadrut qəsəbəsi, Çaylı, Yuxarı Güzdək, Gorazıllı, Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı və Sur kəndləri işğaldan azad olunub. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bununla əlaqədar xalqa müraciət edib.

• Prezident İlham Əliyev "CNN International" televiziya kanalının "Connect the World" proqramına, "Sky News" telekanalına müsahibə verib.

• Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, oktyabrın 8-i günün ikinci yarısından başlayaraq 9-u səhərədək və gecə ərzində bütün cəbhə boyu gərgin döyüşlər davam edib. Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırıb və aktivliyinin qarşısını qətiyyətlə alıb. Görülən tədbirlər nəticəsində düşmən qoşunları arasında idarəetmə və qarşılıqlı əlaqə itib, bölmələri arasında nizamsızlıq yaranıb, şəxsi heyətinin intizamı pozulub, döyüş mövqelərinin tərk edilməsi kütləvi hal alıb.

Hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusunun atəş zərbəsi nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının qərargah binası dağıdılıb. Nəticədə binada olan 10-cu dağatıcı diviziyanın qərargah rəisi polkovnik Samvel Qriqoryan ağır yaralanıb, alayın artilleriya rəisi, polkovnik-leytenant Arman Dermeyan və xeyli sayda hərbi qulluqçu məhv edilib.

Azərbaycan Ordusunun Xankəndi şəhərinə endirdiyi atəş zərbələrindən ağır itkilərə məruz qalan Ermənistan silahlı qüvvələrinin burada yerləşən hərbi hissələrinin şəxsi heyəti təxliyə olunub. Xankəndidə yerləşən hərbi hissələrdən birinin sığınacağına endirilən artilleriya atəşi nəticəsində isə xeyli sayda hərbi qulluqçu məhv edilib və yaralanıb.

• Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad olunan ərazilərində Azərbaycan Bayrağının dalğalanmasını əks etdirən görüntüləri paylaşıb.

• Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 9-u saat 17:00-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib. Bildirilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 31 nəfər həlak olub, 168 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 1091 ev, 143 mülki obyekt və 45 çoxmənzilli yaşayış binası yararsız vəziyyətə düşüb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, ölkəmizin dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

• Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, Azərbaycan Ordusunun daha bir uğurlu əməliyyatı nəticəsində Ermənistan silahlı qüvvələrinin xeyli sayda tank və PDM-ləri ələ keçirilib. Erməni təxribatına qarşı ordumuz tərəfindən hərbi əməliyyatlar uğurla davam etdirilib. Azərbaycan Ordusu tərəfindən düşmənə bir daha ağır zərbə vurulub. Hərbçilərimiz qarşısında aciz qalan düşmən texnikaları ataraq qaçıb. Nəticədə işlək vəziyyətdə olan 30-a yaxın tank və piyada döyüş maşınları ələ keçirilib.



• Azərbaycan Ordusu bölmələrinin keçirdiyi döyüş əməliyyatları nəticəsində düşmənin xeyli sayda "Qrad" yaylım atəşli reaktiv sistemi sıradan çıxarılıb.

• Müdafiə Nazirliyindən bildirilib ki, Ermənistan ərazisindən Mingəçevir şəhəri istiqamətində atılan ballistik hədəf Azərbaycanın hava hücumundan müdafiə sistemləri tərəfindən aşkarlanaraq 20 kilometrdən artıq hündürlükdə məhv edilib.

• Düşmənin radioelektron mübarizə vasitələri və atəş mövqeyinə çıxardığı zirehli texnikalar məhv edilib.

***Mustfi K AMAL***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 291** **Bakı şəhəri, 7 oktyabr 2025-ci il**

**"Astara şəhərinin 2039-cu ilədək inkişafına dair Baş planı"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Astara şəhərinin 2039-cu ilədək inkişafına dair Baş planı" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 292** **Bakı şəhəri, 7 oktyabr 2025-ci il**

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələrin fəaliyyətinin optimallaşdırılması haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələrin fəaliyyətinin optimallaşdırılması və səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 aprel tarixli 545 nömrəli Sərəncamının 1-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində aşağıdakı publik hüquqi şəxslər yaradılsın:

1.1. Geologiya və Geofizika İnstitutunun və Neft və Qaz İnstitutunun əsasında Geologiya İnstitutu;

1.2. Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun və Torpaqşünaslıq və Aqrokimya İnstitutunun əsasında Coğrafiya İnstitutu;

1.3. Fizika İnstitutunun və Radiasiya Problemləri İnstitutunun əsasında Fizika İnstitutu;

1.4. Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun və Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun əsasında Kimya İnstitutu;

1.5. İdarəetmə Sistemləri İnstitutunun və Riyaziyyat və Mexanika İnstitutunun əsasında Riyaziyyat İnstitutu;

1.6. Botanika İnstitutunun və Dendrologiya İnstitutunun əsasında Botanika İnstitutu;

1.7. Zoologiya İnstitutunun və Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun əsasında Canlı Sistemlərin Tədqiqi İnstitutu;

1.8. Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun, Mikrobiologiya İnstitutunun və Biofizika İnstitutunun əsasında Molekulyar Biologiya İnstitutu.

**2.** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki:

2.1. Polimer Materialları İnstitutu Sumqayıt Dövlət Universitetinin tabeliyinə verilsin;

2.2. Ekologiya və Təbii Ehtiyatlar İnstitutu (Gəncə), Bioresurslar İnstitutu (Gəncə), Aqrar Problemlər İnstitutu (Gəncə) və Nəbatat Bağı (Gəncə) Gəncə Dövlət Universitetinin tabeliyinə verilsin;

2.3. Təbii Ehtiyatlar İnstitutu (Naxçıvan), Bioresurslar İnstitutu (Naxçıvan) və Batabat Astrofizika Rəsədxanası (Naxçıvan) Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilsin.

**3.** Bu Qərarın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxslərin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

3.1.1. elmi müəssisələrin yenidən təşkili və ləğv edilməsi;

3.2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə:

3.2.1. bu Qərarın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**4.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi:

4.1. bu Qərarın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxslərin nizamnamələrini iki ay müddətində təsdiq etsin;

4.2. publik hüquqi şəxslərin dövlət qeydiyyatına alınması üçün onların nizamnamələri təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

4.3. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Ərazilərin bütövləşməsi və suverenliyin tam bərpası

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində Konstitusiya və Suverenlik İli" çərçivəsində "Dövlət sərhədlərinin bərpası və suverenliyimizin təmin edilməsində Prezident İlham Əliyevin çətin və şərəfli yolu" mövzusunda konfrans keçirilib.**



Muxtar Respublikanın iqtisadiyyat naziri Kazım Hüseynəliyev ölkəmizdə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunmasının əhəmiyyətindən danışıb, Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoymasını və qüdrətli bir ölkəyə çevrilməsini diqqətə çatdırıb. Nazir iqtisadi müstəqilliyin əldə olunması, sahibkarlığın inkişafı, özəl sektorun formalaşmasında Ulu öndər Heydər Əliyevin xidmətlərindən, bu siyasətin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsindən ətraflı söz açıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsinin milli suverenliyimiz və hüquqi dəyərlərimizin təbliği baxımından tarixi addım olduğunu vurğulayıb. Muxtar Respublikanın ədliyyə nazirinin müavini Hüseyn Səfərov Ümummilli liderin müstəqil Azərbaycanın qanunvericilik sisteminin formalaşmasında misilsiz rolunu qeyd edib, milli hüquqi dövlətçiliyin əsasını yaratdığını söyləyib.

Məclisdə "Dövlət sərhədlərinin bərpası və suverenliyimizin təmin edilməsində cənab İlham Əliyevin çətin və şərəfli yolu" haqqında videoçarx nümayiş olunub.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 294** **Bakı şəhəri, 7 oktyabr 2025-ci il**

**"Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının 5.5-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddə 467, № 9, maddələr 1090, 1100; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 avqust tarixli 230 nömrəli və 22 sentyabr tarixli 279 nömrəli qərarları) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın II bölməsinin 12.6-cı bəndi ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 437, 449, 467, № 9, maddə 1100; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 22 sentyabr tarixli 279 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"ndan "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi" sətri çıxarılsın.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101, № 3, maddə 310, № 4, maddə 449, № 5 (II kitab), maddələr 572, 607, № 7, maddələr 895, 915, № 12 (II kitab), maddə 1428) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"nin cədvəlinin 55-ci hissəsi ləğv edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 dekabr tarixli 315 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1379 (Cild I); 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyi personalının xüsusi texniki vasitələrdən istifadə etməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.2.9-cu yarımbənddə "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra – RİNN yanında DMAA)" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra – DMAA)" sözləri ilə əvəz edilsin;

4.2. 2.9-cu, 2.13-cü, 3.7-ci bəndlərdə "RİNN yanında DMAA" sözləri "DMAA" akronimi ilə, 2.10-cu, 2.11-ci və 5.1-1-ci bəndlərdə "RİNN yanında DMAA-nın" sözləri "DMAA-nın" sözləri ilə əvəz edilsin.

**5.** "Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin bəzi məsələləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 2 avqust tarixli 313 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1603 (Cild I); 2024, № 4, maddə 441) 1-ci və 2-ci hissələri ləğv edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 iyul tarixli 292 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (II kitab), maddə 1626 (Cild I); 2024, № 4, maddə 441; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 9 sentyabr tarixli 254 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın 22-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"22. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxs.".

**7.** "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 435 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2150 (Cild I) 1-ci hissəsinin "Kollegiyanın üzvləri" bölməsində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyinin İdarə Heyətinin sədri" sözləri ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 avqust tarixli 228 nömrəli, 10 sentyabr tarixli 257 nömrəli, 16 sentyabr tarixli 263 nömrəli, 17 sentyabr tarixli 270 nömrəli və 22 sentyabr tarixli 279 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nın 126-cı hissəsində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 11 iyun tarixli 199 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 789 (Cild I); 2024, № 11, maddə 1246) ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyası dövründə Azərbaycan Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın 2.1.4-1-ci yarımbəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

**10.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 9 iyul tarixli 199 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 862 (Cild I) ilə təsdiq edilmiş "Hava limanının nəzarət edilməyən zonalarının təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın 1.3-cü bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

**11.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 16 iyun tarixli 231 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 672 (Cild I); 2024, № 5 (II kitab), maddə 611, № 9, maddə 1090; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Qeydiyyatdan keçmiş yük agentlərinə və məlum yükgöndərənlərə sertifikat və fərdi kod nömrəsinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 3.1-ci bənddə "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin;

11.2. həmin Qaydaya 1 nömrəli əlavə - "Qeydiyyatdan keçmiş yük agentlərinin (məlum yükgöndərənlərin) sertifikatlaşdırılması üçün ərizə"də "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin;

11.3. həmin Qaydaya 4 nömrəli əlavənin adında "RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ YANINDA" sözləri "RESPUBLİKASI RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN TABELİYİNDƏ" sözləri ilə və sonunda "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

**12.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 oktyabr tarixli 468 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 10, maddə 1179) ilə təsdiq edilmiş "Digər dövlətdə qeydiyyatda olan mülki hava gəmilərinin uçuşa və istismara yararlılığının təmin edilməsi, uçuş heyətinə və uçuş sənədlərinə dair tələblərin həyata keçirilməsi Qaydası"nın 1.6-cı bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

**13.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 21 noyabr tarixli 490 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 11, maddə 1266) ilə təsdiq edilmiş "Digər dövlətdə qeydiyyatda olan istismarçılar tərəfindən istismar edilən hava gəmilərinə uçuşların təhlükəsizliyi ilə bağlı nəzarətin həyata keçirilməsi Qaydası"nın 1.3-cü bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

**14.** "Müfəttiş heyətinin aviasiya təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı təlim keçmə Qaydaları"nın və "Müfəttiş heyətinin uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı təlim keçmə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 6 dekabr tarixli 515 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 12 (I kitab), maddə 1320) aşağıdakı dəyişikliklər edilsin:

14.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Müfəttiş heyətinin aviasiya təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı təlim keçmə Qaydaları"nın 2.1-ci bəndinin ikinci cümləsində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin;

14.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Müfəttiş heyətinin uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı təlim keçmə Qaydaları"nın 2.1-ci bəndinin ikinci cümləsində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

**15.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 yanvar tarixli 2 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 1, maddə 76) ilə təsdiq edilmiş "Digər dövlətdə yerləşən aviasiya personalının hazırlığı ilə məşğul olan tədris-təlim mərkəzlərinin tanınması Qaydası"nın 1.4-cü bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

**16.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 19 fevral tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 188) ilə təsdiq edilmiş "Uçuş və kabinə heyətinə təlim keçən təşkilatlara, uçuş və kabinə heyətinin bilik və bacarıqlarını yoxlayan təlimçilərə sertifikatın verilməsi Qaydası"nın 1.3-cü bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

**17.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 19 fevral tarixli 28 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 189) ilə təsdiq edilmiş "Hava hərəkəti xidmətlərini təmin edən təchizatçıların, habelə sistemlərin, onların tərkib hissələrinin layihələndirilməsinə, istehsalına və ya texniki xidmətinə cəlb olunan təşkilatların sertifikatlaşdırılması Qaydası"nın 1.4-cü bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

**18.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 19 fevral tarixli 29 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 190) ilə təsdiq edilmiş "Hava limanları və (və ya) aerodromların layihələndirilməsinə və istismarına dair Tələblər"in 3.2-ci və 25.2-ci bəndlərində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

**19.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 19 fevral tarixli 30 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 191) ilə təsdiq edilmiş "Kommersiya hava daşımalarının, sərnişin, baqaj, yük və poçt göndərişlərinin hava daşımalarının həyata keçirilməsi Qaydaları"nın 1.4-cü bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

**20.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 20 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 199) ilə təsdiq edilmiş "Mülki hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığının saxlanılmasını idarə edən təşkilatların sertifikatlaşdırılması Qaydası"nın 1.5-ci bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

**21.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 69 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 3, maddə 280) ilə təsdiq edilmiş "Mülki hava limanları və (və ya) aerodromların istismara yararlılıq, aeronaviqasiya təchizatı və təminatı, təhlükəsizlik tələblərinin təminatı baxımından sertifikatlaşdırılması, hava limanlarına və (və ya) aerodromlara uyğunluq sertifikatının alınması, onların dövlət qeydiyyatına alınması Qaydaları"nın 3 nömrəli əlavənin "BƏYANNAMƏ" hissəsinin 1-ci bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

**22.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 14 aprel tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (I kitab), maddə 396) ilə təsdiq edilmiş "Hava gəmilərinin beynəlxalq uçuş əməliyyatlarının, məşq uçuşlarının və xüsusi xarakterli aviasiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı uçuşların həyata keçirilməsi Qaydaları"nın 2.2-ci bəndində "Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında" sözləri "Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 217 (30911) 9 oktyabr 2025-ci il, cümə axşamı

## İDMAN

## Avropa çempionatında 3 oyundan 5 xal

**Kişi şahmatçılardan ibarət Azərbaycan millisi Gürcüstanın Batumi şəhərində keçirilən Avropa çempionatında növbəti qələbəsini qazanıb.**



Şəhriyar Məmmədyarov, Rauf Məmmədov, Aydın Süleymanlı, Məhəmməd Muradlı və Eltac Səfərlinin yer aldığı kollektiv bu dəfə Polşadan üstün olub – 2.5:1.5.

Daha əvvəl Slovakiyaya (3:1) qalib gələn və Çexiya (2:2) ilə bərabərə qalan komanda hazırda 5 xalla üçüncü pillədədir.

Qadınlardan ibarət milli isə bu dəfə heç-heçəyə razılaşıb. Ülviyyə Fətəliyeva, Gövhər Beydullayeva, Xanım Balacayeva, Gülnar Məmmədova və Ayan Allahverdiyevanın olduğu qadınlardan ibarət millimiz Fransa ilə xalları yarı bölüb – 2:2. İlk iki görüşdə Sloveniya (4:0) və Macarıstandan (2.5:1.5) üstün olan komandamız 5 xalla 4-cü yerdədir.

Qeyd edək ki, İsveçrə sistemi ilə keçirilən Avropa çempionatı oktyabrın 14-dək davam edəcək.

## Fransa – Azərbaycan oyununu norveçli hakimlər idarə edəcəklər



**DÇ-2026-nın seçmə mərhələsində keçiriləcək Fransa – Azərbaycan oyununu norveçli hakim idarə edəcək. Baş hakim Rohit Saqqi bununla ikinci dəfə yığmamızın oyununda ədaləti qoruyacaq. Qeyd edək ki o, 2024-cü ildə komandanın UEFA Millətlər Liqasında Slovakiya ilə Bakıda keçirilən görüşündə oyunu idarə edib.**

Ona Yorqen Ronning Valstadsve və Ole Andreas Haukasen kömək göstərəcəklər. Dördüncü hakim funksiyasını Daniel Hiqraff yerinə yetirəcək. VAR-da Tom Harald Haqen, AVAR-da Siqurd Krinqstad əyləşəcək.

Xatırladaq ki, Azərbaycan millisi sabah DÇ-2026-nın seçmə mərhələsində Fransa ilə üz-üzə gələcək. Qarşılaşma Bakı vaxtı ilə saat 22:45-də "Park de Prens" stadionunda keçiriləcək.

## Bakıda Millətlər Liqasının qrup oyunları keçiriləcək




**Amputant futbolu üzrə 2025-ci il Millətlər Liqasının C qrupunun oyunları Bakıda keçiriləcək. Qarşılaşmalar oktyabrın 17-19-da təşkil olunacaq. Açılış mərasimi oktyabrın 17-də "ASCO Arena"da olacaq və saat 11:30-da başlayacaq.**

Qeyd edək ki, bu turnirin Azərbaycanda keçirilməsi ölkəmizdə mina probleminin dünyaya çatdırılması, minadan zərərçəkənlərin beynəlxalq idman platformalarına bir araya gəlməsi baxımından əhəmiyyətlidir. Xatırladaq ki, hələ də minlərlə hektar ərazilərimiz ermənilərin basdırdığı minalardan təmizlənmədiyi üçün real təhlükə mənbəyi olaraq qalır.

***Y.QABİL***
***XQ***

# Gəncədə III MDB Oyunlarının bağlanış mərasimi

**Azərbaycanın ilk dəfə evsahibliyi etdiyi III MDB Oyunlarının bağlanış mərasimi keçirilib.**





Gəncə Stadionunda təşkil olunan tədbir bədii hissə ilə başlayıb. Yarışlar haqqında ümumi videoçarx nümayiş etdirilib.

Sonra III MDB Oyunlarının Təşkilat Komitəsinin sədri Samir Şərifov yarışların uğurla başa çatdığını bildirib. O deyib: "On bir gün ərzində Oyunlara ev sahibliyi edən Gəncə, Şəki, Qəbələ, Yevlax, Mingəçevir, Göygöl və Xankəndi şəhərləri möhtəşəm idman bayramının şahidinə və bilavasitə iştirakçısına çevrilib. Müstəqil Dövlətlər Birliyinə daxil olan 8 ölkənin və Oyunlara qatılan daha 5 ölkənin idmançıları 23 idman növü üzrə yarışlarda öz məharətlərini, əzmkarlıqlarını nümayiş etdirdilər. Onlar 235 dəst fərdi və komanda mükafatları uğrunda mübarizə apararaq milyonlarla idmansevərə unudulmaz sevinc, həyəcan, həmçinin qürur dolu anlar yaşatdılar. Bu möhtəşəm idman bayramının ərsəyə gəlməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdiyi qayğının təzahürüdür. Əminliklə deyə bilərik ki, Azərbaycanda keçirilən III MDB Oyunlarının təşkilində ən yüksək standartlar təmin edilib".

Ardınca III MDB Oyunlarının bayrağı endirilib. Sonra Dövlət Himni səsləndirilib.

Tədbir bədii hissə ilə davam edib.

Azərbaycan Oyunları ümumilikdə 184 medalla başa vurub. Bunların 33-ü qızıl, 56-sı gümüş, 95-i isə bürünc mükafatdır. Ölkəmiz bu göstərici ilə ümumi medal sıralamasında 2-ci yeri tutub. İlk sırada Rusiya qərarlaşıb. Beləliklə, Azərbaycan idmançıları 2021-ci ildən təşkil olunan MDB Oyunlarında ən yaxşı nəticəsinə imza atıb. Ölkəmiz I Oyunlarda 60 (16 qızıl, 16 gümüş, 28 bürünc), ikincidə isə 62 (10 qızıl, 17 gümüş və 35 bürünc) medal əldə etmişdi.

III MDB Oyunlarına Azərbaycanın yeddi şəhəri – Gəncə, Şəki, Qəbələ, Yevlax, Mingəçevir, Göygöl və Xankəndi ev sahibliyi edib.

***XQ***





# Azərbaycan daha bir beynəlxalq yarışı uğurla başa çatdırdı

**Bədii gimnastlarımız yarışları 8 medalla başa vurub**



**Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandası III MDB Oyunlarında halqalarla çıxışlarda üçüncü nəticə göstərib.**

Dünən keçirilən fərdi yarışda Nur Sadıqova halqalarla bürünc medal qazanıb. Azadə Atakişiyeva isə topla gümüş medala sahib olub. Bundan əlavə, A.Atakişiyeva çoxnövçülükdə də ikinci yeri tutmuşdu. Fidan Qurbanlı gürzlərlə, Azadə Atakişiyeva isə lentlərlə hərəkətlərdə gümüş medal qazanıb.

Beləliklə, Azərbaycan gimnastları III MDB Oyunlarını 8 medalla başa vurublar. İdmançılarımız 4 gümüş və həmin sayda bürünc medal qazanıblar.

Bədii gimnastika yarışlarında ümumi komanda hesabında Rusiya 1-ci, Belarus 2-ci, Azərbaycan idmançıları isə 3-cü nəticə göstəriblər.

**Bu dəfə daha çox medal**

**Dünən başa çatan III MDB Oyunlarında ölkəmiz ümumilikdə 184 medal qazanıb. Bunların 33-ü qızıl, 56-sı gümüş, 95-i isə bürünc mükafatdır. Komandamız bu göstərici ilə medalların həm əyarı, həm də sayına görə sıralamada 2-ci yeri tutub. Birinci yerdə 231 medal qazanan Rusiya qərarlaşıb. 122 medala sahib çıxan Belarus kollektivi isə 3-cü yerlə kifayətlənib.**

| Rank | Country | Gold | Silver | Bronze | Total |
|---|---|---|---|---|---|
| 1 | Russia | 130 | 61 | 40 | 231 |
| 2 | Azerbaijan | 33 | 56 | 95 | 184 |
| 3 | Belarus | 32 | 38 | 52 | 122 |
| 4 | Uzbekistan | 25 | 33 | 61 | 119 |
| 5 | Kazakhstan | 10 | 24 | 48 | 82 |
| 6 | Kyrgyzstan | 1 | 15 | 9 | 25 |
| 7 | Tajikistan | 1 | 5 | 16 | 22 |
| 8 | Turkmenistan | 0 | 0 | 2 | 2 |
| = 9 | Pakistan | 0 | 0 | 1 | 1 |
| = 9 | Türkiye | 0 | 0 | 1 | 1 |
| 11 | Cuba | 0 | 0 | 0 | 0 |
| 11 | Kuwait | 0 | 0 | 0 | 0 |
| 11 | Oman | 0 | 0 | 0 | 0 |

Bu göstəricilərlə Azərbaycan idmançıları 2021-ci ildən təşkil olunan MDB Oyunlarında ən yaxşı nəticəsinə imza atıb. Ölkəmiz I Oyunlarda 60 (16 qızıl, 16 gümüş, 28 bürünc), ikincidə isə 62 (10 qızıl, 17 gümüş və 35 bürünc) medal qazanıb. İdmançılarımız sonuncu yarışlarda əvvəlki iki Oyunda qazandığı medalların cəmindən artıq mükafat əldə ediblər.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Yeni nəşrlər*

# "İnsan alveri"ndən "Qəsdən ölüm"ə

**Bu günlərdə şair-yazıçı Rafiq Ələkbərin "İnsan alveri" və "Qəsdən ölüm" romanlarının yer aldığı yeni kitabı işıq üzü görüb. "Tərcümə və nəşriyyat poliqrafiya mərkəzi"ndə nəşr olunan kitabda ixtisasca hüquqşünas olan yazıçının şəxsi yaşantı və gerçək həyat materiallarına istinad edərək qələmə aldığı 2 detektiv romanı yer alıb.**

Filologiya elmləri doktoru, professor Telman Cəfərovun ön söz yazdığı kitabdakı hər iki roman bədii mahiyyətinə görə tipik Azərbaycan elementlərini özündə əks etdirən milli aspektdə detektiv romanlardır. Hadisələrin mərkəzində hüquq-mühafizə orqanlarının cinayətkarlığa qarşı mübarizədə peşəkarlığı və fədakarlığı dayanır.

Əsərlərinin ən səciyyəvi xüsusiyyətlərindən biri burada hər hansı bir fantaziyaya, müəllif təxəyyülündən irəli gələn uydurmalara yer verilməməsi, detektiv hadisələrə fəlsəfi çalarlar qatılmasıdır. Romanlardakı personajlar və obrazlar macərapərəst və uydurma sərgüzəştlərdən uzaqdır, real həyat həqiqətləri üzərində qurulan süjetlər oxucuya həyat fəlsəfəsinin dərin qatlarını anladır...

***R.İLQAR***
***XQ***




## HAVA

## Hava az çiskinli və zəif duman olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi yerlərdə zəif duman, az çiskinli olacağı ehtimalı var. Mülayim cənub-şərq küləyi əsəcək.**



Havanın temperaturu gecə 17-19, gündüz 21-26 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 80-85, gündüz 55-60 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti, əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şərq rayonlarında az çiskinli olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 15-19, gündüz 23-28, dağlarda gecə 8-13, gündüz 15-20 dərəcə isti olacağı proqnozlaşdırılır.

***Q.ƏLİYEV***
***XQ***

✓ *İsmayıllı Rayon Dövlət Yanğından Mühafizə Hissəsi tərəfindən Aslanov Söhrab Mahir oğlunun adına verilmiş iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

✓ *2004-cü il iyulun 4-də keçmiş "BUS BANK"ın Pirallahı filialı tərəfindən Bayramov Elşən Rəşid oğlunun adına verilmiş 0187495 nömrəli əmək kitabçası itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN!

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, professor Nazim Pənahov və institutun kollektivi tibb elmləri doktoru, professor

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3515
SİFARİŞ 1949
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00